Azərbaycan Respublikası
Mədəniyyət və Turizm Nazirliyi

F. Köçərli adına
Respublika Uşaq Kitabxanası



# Humanizmi, nikbinliyi ilə seçilən şairə

**Məhsəti Gəncəvinin 905 illik yubileyi münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait**

**Bakı – 2018**

**Tərtibçilər:** **Ruhiyyə Məmmədli**
**Sevil Əhmədova**

**Redaktor:** **Könül Ağazadə**

**İxtisas redaktoru və buraxılışa məsul:** **Şəhla Qəmbərova**
*Əməkdar Mədəniyyət işçisi*

**Humanizmi, nikbinliyi ilə seçilən şairə:** Məhsəti Gəncəvinin 905 illik yubileyi münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait / Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi, F. Köçərli ad.Respublika Uşaq Kitabxanası ; tərt.ed. R. Məmmədli ; ixt.red. və burax.məsul Ş. Qəmbərova ; red. K. Ağazadə. - Bakı : F. Köçərli ad.Respublika Uşaq Kitabxanası, 2018. - 61 s.

**©F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2018**

## Tərtibçidən

Azərbaycan klassik ədəbiyyatı yüksək bəşəri ideallar, təmiz, müqəddəs və xeyirxah hisslər xəzinəsidir. Ecazkar qadın qəlbinin ülvi duyğularını əks etdirən, duyan, könüllərdə sönməz, silinməz izlər buraxan, qadın ürəyinə xas olan kövrəklik, cəsarət, səmimilik, mehribanlıq kimi müsbət keyfiyyətlər klassik Azərbaycan qadın şairlərinin yaradıcılığının müqəddəs idealı olmuşdur. Qadın şairlərimiz öz duyğularını, hisslərini şeirin dili ilə əbədiləşdirərək, ürəklərinin şeirə dönmüş döyüntülərini yadigar qoyub getmişdir. Bu xəzinəni yaradan nümayəndələrdən biri olan Məhsəti Gəncəvi XI əsrin sonları XII əsrin əvvəllərində yaşamış Azərbaycan intibahının parlaq nümayəndəsi və həqiqəti olmuşdur. Məhsəti Gəncəvi doqquz yüz il bundan öncə yanar düşüncəsi və mübariz qələmi ilə öz sözünü deyən sənətkardır. Bəli, şeirimizin Məhsəti adlı bir gözəl xanımı, bir şux gəlini var ki, o, ən aydın həqiqət, ən sevimli, ən əbədi varlıqdır. Məhsəti şöhrətinin, Məhsəti fəthlərinin fəzaları hüdudsuzdur. Məhsəti Gəncəvinin cüng və təzkirələri bəzəyərək dillərdə gəzən, titrək bir qəlbin çırpıntılarını əks etdirən şeirləri, rübailəri, qəzəlləri xalqın qəlbinə yol tapmış, dildən-dilə, nəsildən-nəslə keçərək bu günə qədər gəlib çatmışdır. Bu gün Məhsətinin danışdığı dillərin sayı çoxdur. İndi onun rübailəri dünyanın bütün tanınmış dillərində nəşr olunur. Bəli, şairənin poetik yadigarlarının sərhədi getdikcə böyüyür. Araşdırmalardan məlum olur ki, XII yüzildə dünyanın heç bir xalqının ədəbiyyatında Məhsəti qüdrətli, Məhsəti səviyyəli və Məhsəti istedadlı bir qadın şair görünmür. Bəli, Məhsəti Gəncəvi yalnız Şərqin deyil, bütün dünya ədəbiyyatının bəzəyidir. Məhsəti Gəncəvinin ən böyük nailiyyəti, bir ömür bahasına qazandığı ən başlıca xoşbəxtliyi onun şairə olaraq əbədi dirilik, ölməzlik qazanmasıdır. Onun yaratdığı söz sənəti nümunələri insanı ucaldan yüksək bəşəri duyğular, nikbin ruh və dərin lirizmlə səciyyələnərək geniş şöhrət tapmış, sonrakı

dövrlərdə bədii zövqün formalaşmasına mühüm təsir göstərmişdir. M. Gəncəvi ədəbiyyatda humanizmin yaranması və inkişafında mühüm rolu olan sənətkarlardandır. Şairənin ədəbi şəxsiyyəti yaradıcı Şərq qadınının fikir və mənəvi azadlığının parlaq təcəssümü kimi Qərb şərqşünaslarının əsərlərində çox yüksək dəyərləndirilmişdir. Məhsətinin zahirən kiçik görünən poetik irsinin daxili üfüqləri hüdudsuzdur. Məhsəti poeziyamızda azad fikirliyin ilk carçılarındandır. O, Azərbaycan poeziyasında şəhraşub (Şəhrəngiz) poetik janrının gözəl mümunələrini yaratmışdır. Bəli, Məhsəti Gəncəvi ən müqtədir, ən sevgili şairələrimizdəndir. Şairənin ədəbi şəxsiyyəti yaradıcı Şərq qadınının fikir və mənəvi azadlığının parlaq təcəssümü kimi Qərb şərqşünaslarının əsərlərində çox yüksək dəyərləndirilmişdir. 9 əsrdən çoxdur Məhsətinin hər biri çiçək kimi sevimli, həyat şövqü ilə dolu rübailəri nəsil-nəsil insanlarımızın zövqünü oxşayır, ruhunu təzələyir. Məhsəti şeirləri, xüsusilə fəlsəfi dərinliyi ilə seçilən rübailəri ilə oxucularda həyata məhəbbət oyadır, onları nikbinliyə, dünyanın gözəlliklərindən ilham almağa çağırır. Bu vəsaiti Məhsəti Gəncəvinin yubileyi münasibətilə sizə təqdim edirik. Humanizmi, nikbinliyi ilə seçilən şairə adlanan metodik vəsait "Giriş" və "Keçiriləcək tədbirlər" hissəsindən ibarətdir. Vəsaitin "Giriş" hissəsində Məhsəti Gəncəvinin həyat və yaradıcılığından söhbət açılır. Vəsaitin ikinci hissəsində kitabxanalarda keçiriləcək tədbirlərdən bəhs olunur.

## Həyat və yaradıcılığı

Azərbaycan klassik ədəbiyyatı yüksək bəşəri ideallar, təmiz, müqəddəs və xeyirxah hisslər xəzinəsidir. XII əsr Azərbaycan klassik ədəbiyyatının görkəmli nümayəndəsi, şeir məktəbinin yaradıcılarından biri olan Məhsəti Gəncəvi ədəbiyyatımızın inkişafında mühüm rolu olan sənətkarlardandır. Onun yazıb-yaratdığı dövrdən 905 il keçməsinə baxmayaraq şeirləri bu gün də sevilə-sevilə oxucularına zövq verir, dünyanın gözəlliklərindən ilham almağa çağırır. Məhsəti xanım Azərbaycan ədəbiyyatının çiçəkləndiyi bir dövrdə yaşamışdır. Bu dövrdə Nizami, Xaqani kimi dahi sənətkarlar yetişmiş, Mücrəddin, Əbül -Üla kimi şairlər yazıb-yaratmışlar.

Təqribən 1113-cü ildə (bəzi mənbələrə görə 1089) Azərbaycanın qədim mədəniyyət mərkəzlərindən olan Gəncə şəhərində dünyaya göz açmış Məhsəti, uzun və səmərəli ömür sürmüş, müasiri dahi Nizami kimi mükəmməl təhsil almış, poeziya, fəlsəfə, musiqi, şahmat və başqa sahələrdə dövrünün kişi sənətkarlarından heç də geri qalmamışdır. Onun müxtəlif qaynaqlardan toplanmış 200-dən artıq rübaisi Orta əsrlər Azərbaycan renessansının klassik örnəkləri cərgəsində özünə əbədi yer tutmuşdur.

Mütəfəkkir şairənin əsərləri əsrlər sonra da aktualdır, sevilə-sevilə oxunur. O, şeirləri, xüsusilə fəlsəfi dərinliyi ilə seçilən rübailəri ilə oxucularda həyata məhəbbət oyadır, onları nikbinliyə, dünyanın gözəlliklərindən ilham almağa çağırır. Məhsəti Gəncəvi xalqını tərki - dünyalıqdan, zahidlik və vaxtı keçmiş adət-ənənələrdən uzaq olmağa səsləyir. Məhsətinin tarixi şəxsiyyət olması, Ömər Xəyyamdan əvvəl və yaxud da sonra yaşaması haqqında bəzi məlumatlar var. Böyük Azərbaycan şairi Nizami Gəncəvinin “Xosrov və Şirin” poemasının müqəddiməsində, sufi şair olan Fəridəddin Əttarın “İlahinamə” əsərində də Məhsətininin adı çəkilmişdir. İlk dəfə Mirabbas Mirbağırzadə XX əsrin 20-30-cu illərində Məhsətidən

söhbət açmış və bildirmişdir ki, şairənin anadan olma tarixi məhz "Əmir Əhməd və Məhsəti" dastanında verilmişdir. Məhsətinin 20 yaşı olduğu zaman Sultan Mahmud Səlcuqinin sarayı ilə əlaqəsi olmuşdur. Məhsəti lirikasının əsasını məhəbbət təşkil edir. Rübailərində humanizm, dünyəvilik, nikbinlik öz əksini tapır. Şairə məhəbbəti yüksək, nəcib bir hiss kimi ifadə etmişdir. Onun yaradıcılığında, şərq qadınının azad və xoşbəxt həyatı haqqında arzuları da əks olunmuşdur. Məhsətinin ən böyük nailiyyəti, bir ömür bahasına qazandığı ən başlıca xoşbəxtliyi budur ki, o, şairə olaraq əbədi dirilik, ölməzlik qazanmışdır. Məhsəti hüsnüylə, təravətli rübailəriylə, sətrəncdəki istedadıyla, musiqidəki səriştəsiylə, büründüyü şöhrət və diqqət haləsiylə tarix içində, doğrudan da, xanımlar xanımı kimi ucalmışdır.

İlk dəfə olaraq Səhab Tahiri tərəfindən Məhsətinin müxtəlif mənbələrdən rübai, qitə və qəzəlləri toplanmış və 1957-ci ildə 200-ə yaxın şeir parçasından ibarət divanını tərtib etmişdir.

Məhsəti tərəqqidə olan, intibah havasıyla nəfəs alan, əlvan, səs-küylü, get-gəli bol, bazarları rəvaclı, mədəni yüksəlişin qanadlarında ucalan Gəncədə yaşadı. Bu şəhərdə hörmət - izzət, sevgi də gördü, təntənəli yığıncaqlara dönə - dönə qonaq da çağırıldı, qonşu ölkələrin şəhərlərinə hörmətli mehman, şair kimi səfərlərə də çıxdı. Dostlarla, pərəstişkarlarla əhatə olundu, həyatın dadlarından, zövqlərindən bəhrələndi. Bu intibah şəhərində Məhsətinin başçılıq etdiyi şairlər məclisi də vardır. Azərbaycanın poetik məclislərindən danışarkən bu şairlər yığnağının adı ilkin anılmalıdır. Rəziyyə Gəncəvi, Doxtəre – Səti, Doxtəre – Salar, Doxtəre Gavə, Doxtəre – Xətib... Gəncədə Məhsətiylə yanaşı qələm çalırdılar və bu, tək ədəbiyyat tariximiz üçün deyil, həm də ümumən ictimai həyatımızın dünənindəki işıqlı, mədəniyyət baxımından vacib bir hadisənin dərki üçün vacibdir. Məhsəti özü şəhər mədəniyyətinin elçisi olan kimi,

onun rübailəri də əsil şəhər poeziyası, Azərbaycan ədəbiyyatı nümunələri idi.

Ədəbiyyatşünasların fikrincə şəhər həyatının, şəhər mədəniyyətinin əsasını təşkil edən əsnaf təbəqəsini – sənət və peşə sahiblərini klassik şeirimizdə Məhsəti səmimiyyəti və Məhsəti qüdrəti ilə öyən ikinci sənətkar yoxdur. O, yaradıcılığının böyük bir hissəsini məhz bu zümrəylə bağlayaraq sənətkarlardan ibarət zəngin obrazlar yaratmışdır. Məhsəti irsinə bu prizmadan baxarkən onun əsil sənətkar böyüklüyünü anlayırıq və ədəbi hünərinin mahiyyətini dərk edirik. Məhsəti o sənətkarlarımızdandır ki, poetik yadigarlarının bəxtinə sərhədlərdən çıxmaq, ölkələr aşmaq və hər yerdə də qonaq kimi deyil, doğma kimi qarşılanmaq düşür. Məhsəti rübailərinin benqal dilinə tərcümə edən Bitoşok Bhottoçarco yazırdı: "Şeirlər orta əsrlərin müsəlman Şərqi şəraitində, yəni qadınların hələ çadra altında gəzdiyi bir şəraitdə yazılsa da, bugünkü həyatla səsləşir. Məhsəti xanım Gəncəvi dərin lirik və fəlsəfi düşüncələrin məhsulu olan bu rübailərini bizim üçün qoyub getmişdir".

Ədəbiyyat tariximizin bu mübariz, bənzərsiz şairəsi Məhsətinin rübailərinin əksəriyyəti məhəbbətə həsr olunmuşdur. Bu rübailərdə sevən bir qəlbin həyəcanlarını, saf və real bir eşqin ifadəsini görürük. Dərin mənalı rübailəri Yaxın Şərqin hər tərəfinə yayılaraq, Məhsətinin həyatı, yaradıcılığı və şeirləri əsasında "Məhsəti və Əmir Əhməd" adlı dastan yaranmışdır. Məhsəti ilə Gəncə xətibinin oğlu Əmir Əhmədin müşairəsi əsasında yaranan bu dastanın əlyazması nadir nüsxə olmaqla XV əsrdə yazılmışdır. Məhsəti və Əmir Əhməd dastanından çıxış edən müəllif yazır: "Deyirlər ki, Gəncə şəhərində Məhsətidən yaxşı şətrənc oynayan yox idi". Tarixi qədim olan şahmat oyununa Şərq ölkələrində, xüsusən qadınların hələ orta əsrlərdə maraq göstərdiklərini bilirik. Şərq qadınları şahmat oynamaqda yüksək istedad sahibi olmuşlar. Bu

müdrik oyunla maraqlanan sevimli şairəmiz Məhsəti Gəncəvi olmuşdur. Əmir Əhmədlə şahmat taxtası arxasında oyun zamanı Məhsətinin əqil və fərasəti, istedad və bacarığı sayəsində bədahətən dediyi rübailər onun şahmat oyununun incəliklərinə vararaq, ondan zövq almaq bacarığını göstərir.

Azərbaycan qızının yüksək şahmat istedadı alman alimi, şərqşünas F.Meyerin də diqqətini cəlb edir. 1963-cü ildə Visbadendə alman dilində nəşr etdirdiyi "Gözəl Məhsəti" kitabında o, şairənin həyat və yaradıcılığını öyrənmək, onun ədəbi irsini toplayıb nəşr etmək sahəsində faydalı addım ataraq, Məhsətinin Gəncədə doğulduğunu, onun şair, musiqişünas, xanəndə olduğunu, həm də çox gözəl arfa çaldığını göstərmişdir.

Məhsəti öz dövrünün humanist poeziyası ilə yaxından bağlı olduğundan insanı, onun gözəlliyini, istək və arzularını ifadə etmiş, onun həyat eşqinə, duyğularına bəraət qazandırmışdır. Rübai ilə nəfəs alan, onunla yaşayan Məhsəti "Mənimsə kəbinim bir rübaidir" – deyir.

Məhəbbət nəğmələri yaradan şairə səmimi, təmiz insan münasibətlərini təmsil edərək, sevən qəlbin çırpıntılarını, sevincini rəngarəng boyalarla qələmə alır. O, rübailərində elm və sənət adamları ilə yanaşı, sadə zəhmət adamlarını sənətkar, peşəkar və xırda tacir təbəqəsini vəsf edən şəhraşubları ilə də ədəbiyyat tariximizdə birinci şəhraşubun söz ustası kimi tanınır. İnsanın əməyi, işi, gücü, fəaliyyəti tərənnüm edilən şəhraşublar Məhsəti qələminin ən uğurlu inciləridir. Musiqi zərifliyi Məhsətinin rübailərinə çökübsə, şahmat mürəkkəbliyi onun taleyindən keçib.

Rafael Hüseynov yazır: "Məhsətinin şeirlərini oxuduqca sezirsən ki, bu səs qadın səsidir... Mən qadınam və mən də duymağa, sevməyə, nifrət etməyə, öz sözümü deməyə layiqəm. Və həm də qadirəm". Bu səsdə, bu nəfəsdə qadın şəxsiyyətinin, qadın ləyaqətinin, istedadının ucalığının sönməz alovunu, məşəlini görürük. Şairənin müəmmalar zəncirini xatırladan

həyat və yaradıcılığını izləyən Rafael Hüseynov onun xəyal, mif, əfsanə olması barəsindəki yanlış qənaətləri, dolaşıqlıqları elmi cəhətdən araşdırıb Məhsətinin gerçək şəxsiyyət olması haqqındakı həqiqəti üzə çıxarmışdır. Məhsəti surətinə müraciət edən rəssamlarımız, heykəltəraşlarımız öz düşündükləri kimi bu obrazı yaratmışlar.

Vüqar və əzəmət ilə nəzər diqqəti cəlb edən, Gəncənin qiymətli incisi sayılan musiqişünas şairə Məhsəti xanımın şeir dünyamızda öz dəsti-xətti var.

Məhsətiyəm oldum gözəllərə tağ,
Hüsnümü vəsf edir Xorasan, İraq.

deyən şairənin ömür yoluna nəzər saldıqda görürük ki, həqiqətən də Məhsəti xanımlar xanımıdır.

Təqiqatçılar dastanda adı keçən Əmir Əhmədin də tarixi şəxsiyyət olmasını təsdiqləyir: “Əmir Əhməd də tarixi vəsiqələrin danılmaz təsdiqləməsinə müvafiq olaraq yaşamış, yaratmış, söz tariximizdə iz qoymuş bir sənətkardır”.

Məhsəti Gəncəvi həqiqi bir şairə oldu, dünyanı daha dərindən duydu, hiss etdi, insan ağrılarına biganə qala bilmədi... Bu böyük xoşbəxtlik idi ki, ona nəsib olmuşdu.

Azərbaycan rübaiçiliyinin hələ öyrənilməmiş sahələri, açılmamış sirləri çoxdur. Belə ki, monoqrafiyada Parisdə Viktoriya Albert muzeyində üzərində Məhsəti xanımın rübailəri həkk olunmuş bir sürahi saxlandığı haqqında da məlumat verilir.

Məhsətinin surətini düşüncələr aləmində, xəyalında canlandıran, onun həyat səhifəsini vərəqləyən oxucu şairəyə məftun olur. Dilimizin gözəlliyindən, incəliyindən məharətlə istifadə edən, xalqın kədər və sevincini, mənəvi aləmlərini dərindən duyan şairə təkcə Şərqin deyil, bütün dünya ədəbiyyatının bəzəyi olmuşdur.

XII əsrdə yaşayıb – yaratmış Məhsəti Gəncəvi və müasirlərinin ədəbi irsi o vaxtdan indiyədək yalnız bədii sözə məftun olan, onu oxumaqdan, dinləməkdən, əzbərləməkdən

zövq alanları deyil, şeirşünasları, ədəbiyyat tarixçiləri və nəzəriyyəçilərini də daim cazibəsində saxlayıb. Məhsəti irsini sevimli edən, bu irsə müasirlik qazandıran cəhətlər şairənin poetik irsindəki əsas istiqamətlərin məhəbbət lirikası, sosial motivlər, fəlsəfi düşüncələr, xalq gülüş mədəniyyətinin inikasının olmasıdır. Məhsəti irsi rübailər toplusu deyil, bir düşüncədən, vahid poetik üslubdan doğan ədəbi hadisədir. Məhsəti Gəncəvinin tərcümeyi-halı şeirləridir. Şairə ən çox sevilən, ən çox mübahisələr doğuran və ən az öyrənilmiş söz ustalarındandır.

Məhsəti Şərq poeziyasına bir səhər mehi kimi gəldi. Onun şeir nəfəsi təmiz, ətirli olub, ürəkdən qopub ürəklərə hopurdu. O, poeziyamızda azadfikirliliyin ilk carçılarındandır. Şəhər həyatının, şəhər mədəniyyətinin əsasını təşkil edən sənət və peşə sahiblərini klassik şeirimizdə Məhsəti səmimiyyəti və Məhsəti qüdrəti ilə öyən ikinci sənətkar yoxdur. Məhsəti Gəncəvi o sənətkarlarımızdandır ki, poetik yadigarlarının bəxtinə sərhədlərdən çıxmaq, ölkələr aşmaq və hər yerdə qonaq kimi deyil, doğma kimi qarşılanmaq düşür.

Orta əsrlərdə, qadın hüquqlarının olmadığı bir dövrdə Məhsəti kimi istedadlı şairənin yetişməsi təsadüfi deyildir. Əldə olan şeirləri göstərir ki, o yaxşı təhsil almış, ərəb, fars dillərini öyrənmiş, şərq poetikasının incəliklərini mükəmməl bilmişdir. Məhsətinin həyatı, şəxsiyyəti barədə mənbələrdə dəqiq məlumat yoxdur. Şairə haqqında ancaq əsərlərindən gətirilən nümunələr əsasında fikir söyləmək olar. Bu da ondan irəli gəlir ki, orta əsrlərdə qadının şeir yazmağı qəbahət sayılmışdır. Məhsəti şairənin təxəllüsüdür. Məh sözü ay və böyük mənasındadır. Siti burada xanım mənasında işlədilmişdir.

XI əsrin sonları – XII əsrin əvvəllərində yaşamış böyük Azərbaycan şairəsi Məhsəti Gəncəvi Azərbaycan və müsəlman intibahının parlaq nümayəndəsi olmaqla öz şeirlərində sənətkar, şair, müğənni obrazlarını tərənnüm edən yeni şəhər peziyasının

təmsilçisi idi. Məhsəti hər şeydə birincilik qazanmışdır. O, ilk məşhur Azərbaycan şairəsi, ilk şahmatçı qadın, ilk görkəmli qadın musiqiçimiz və çox ehtimal ki, ilk qadın bəstəkarımızdır. Onun tərcümeyi-halı rəvayətlər və müəmmalar haləsinə bürünüb. Şairənin həyatı barədə məlum olan faktlarsa hər halda həmin dövrün müsəlman cəmiyyətinin anlayışında həddən artıq qeyri-adiliyi ilə fərqlənir. Məhsəti Gəncəvi – XII əsrdə yaşamış mənşəcə Azərbaycan türklərindən olan şairə, sufi Əxi təriqətinin üzvü olmuşdur. Rəvayətlərə əsasən, o, Gəncənin Xərabat məhəlləsində yaşamış, vaxtını qonaqlıqlarda, musiqi və rəqs məclislərində keçirmişdir. Onun şerlərində şərab və eşq duyğusu tərənnüm olunur. Şairənin əsərləri içərisində Gəncənin Xərabat məhəlləsində yaşayan gənc sənətkarlara, dərzilərə, əyiricilərə, qızılaxtaranlara və başqalarına həsr etdiyi şeirlər silsiləsi daha çox məşhurdur: Məhsəti xanımın tərcümeyi-halında qəti müəyyənləşmiş səhifələr olduqca azdır. Şairənin yaradıcılığı və həyatı ilə bağlı faktlar Rəfael Hüseynovun şairəyə böyük məhəbbətlə və yüksək peşəkar ustalıqla qələmə aldığı "Məhsəti necə varsa” kitabında toplanmışdır.

Məhsəti Gəncəvi təqribən Gəncə şəhərində doğulmuş və ömrünün sonuna qədər burada yaşamışdır. Onun əsl adı Mənicə idi, Məhsəti adını isə özünə ədəbi təxəllüs kimi götürmüşdü. Həmin təxəllüsün mənşəyi barədə bir neçə rəvayət vardır. Bunlardan birində deyilir ki, guya Sultan Səncərlə söhbətlərindən birində Mənicə öz mühitində hamıdan kiçik və görünməz olduğunu söyləyir. Sultan isə onunla razılaşmayıb deyir ki,"to, meh-həsti" (yəni, "sən hamıdan böyüksən"). Və guya "meh-həsti"-"məhsəti"yə çevrilib, onun təxəllüsü olur. Abbasqulu ağa Bakıxanovun "Gülistani-İrəm" əsərinin "Nəticə" adlanan hissəsində irəli sürülmüş fərziyyəyə görə, "Məhsəti" "mah" və "səti" olmaqla iki sözdən ibarətdir və "böyük xanım" anlamına gəlir. Nəhayət, başqa bir ehtimala əsasən, bu ad "Mah" və "səti" ("Ay xanım") sözlərindən düzəlib. (Nizami Gəncəvinin

Məhin Banusu, Xosrov və Şirin də bunun analoqudur).

Məhsəti yaxşı təhsil almış və əsərlərindən də göründüyü kimi, aşağıdakı şəhər və vilayətlərdə olmuşdur: Rum, Mərv, Bəlx, Nişapur, Herat, Gəncə, Xorasan, İraq, Zuzən, Arran və s. Bir müddət o, böyük Sultan Səncərin sarayında yaşamış, onun qəbullarında və burada keçirilən ədəbi məclislərdə iştirak etmişdir. Deyilənlərə görə, Sultan Səncərin diqqətini onun gözlənilmədən yağan qar haqqında bədahətən söylədiyi bir rübai çəkmişdir: "Göylər sənə gümüşü xalça göndərib ki, atının nalı bulanmasın". Sultan bu rübaini eşitdikdən sonra şairəni "Mə-histi" ("Ən böyük") adı ilə mükafatlandırmış və onu öz yaxın əhatəsinə qəbul etmişdi. Məhsəti ömrünün çox hissəsini Gəncədə keçirmiş, Sultan Məhəmmədin və onun oğlu Sultan Mahmudun saray həyatında yaxından iştirak etmişdi.

Böyük şairənin həyatı barədə məlumatlar əsasən əlyazma nüsxələri Azərbaycan Əlyazmalar İnstitutunda, İstanbulda və Londonda saxlanan XIII əsrə aid edilən "Məhsəti və Əmir Əhməd" dastanından götürülür. Azərbaycan ədəbiyyatşünaslarının son tədqiqatları göstərir ki, "Dastan"ın müəllifi XIII əsrdə yaşamış Azərbaycan şairi və alimi Abdulla Cövhəri Zərgər Təbrizidir və buradakı qəhrəmanlar, o cümlədən şair Əmir Əhməd, Gəncə şahı (Sultan Məhəmməd) və II Gəncə şahı (Sultan Mahmud) real şəxsiyyətlərdir.

Dastanda Əmir Əhmədə bəslənən sevgi əbədi eşqin ən yüksək pilləsidir. Şairəyə görə, bu eşq əbədi məhəbbətin meyarıdır. Ancaq onun nəzərində bundan da ülvi bir sevgi mövcuddur. Bəzən isə şairə özünün sufizmə aidliyi barədə az qala açıq işarələr vurur. Məhsəti Gəncəvinin xalq şeiri tərzinə yaxın formalı rübailəri və öz fəlsəfi mahiyyəti etibarilə dərin məzmunlu şeirləri Azərbaycan və ümumən Şərq poeziyası tarixində mühüm rol oynamışdır. Bir çox tədqiqatçılar Məhsətinin rübailərini Ömər Xəyyam məktəbinə aid edirlər. Buna baxmayaraq, çağdaş ədəbiyyatşünasların əksəriyyətinin

fikrincə, şairə əsası Qətran Təbrizi və İzəddin Şirvani tərəfindən qoyulmuş Azərbaycan şeir məktəbinin ənənələrindən bəhrələnmişdir. Məhsəti ilə Qətran təfəkkürünün əsas oxşar cəhətləri dünyəviliyə sadiq qalmaq, öz yaradıcılığında insanpərvərliyi, insan gözəlliyini, insan məhəbbətini tərənnüm etməklə yanaşı, təbiətin də gözəlliklərini vəsf və təsvir etməkdədir. Məhsəti təbiət lövhələrini təsvir edərkən elə canlı, təbii, gözəl lövhələr yaradır ki, oxucunu, dinləyicini heyran edir. Məhsəti təkcə mədhiyyəçilik çərçivəsində donub qalmamış, öz poeziyasına, öz yaradıcılığına dərin, vüsətli humanist məzmun vermişdir. O, rübailərində təkcə şahları, dövlət xadimləri və sərkərdələri deyil, elm və sənət xadimləri ilə yanaşı, sadə zəhmət adamlarını da tərənnüm etmişdir. Sözsüz ki, əldə olan rübailərindən başqa onun zəngin ədəbi mirası olmuşdur. Təəssüf ki, şairənin elm aləminə hələlik 200-ə yaxın rübaisi, bir neçə qitə və qəzəli bəllidir. Məhsəti Gəncəvinin ədəbi irsi də bütövlükdə zəmanəmizə gəlib çatmamışdır. Onun ədəbi irsindən ancaq müxtəlif təzkirə, cüng, məcmuə və digər mənbələrə səpələnmiş az bir hissə qorunub saxlanılmaqdadır.

Klassik Azərbaycan ədəbiyyatının ən qüdrətli nümayəndələrindən biri olan, bütün Yaxın və Orta Şərqdə rübai ustadı kimi tanınan Məhsəti Gəncəvinin ədəbi irsi ayrıca əlyazma kitabı şəklində günümüzə gəlib çatmamışdır. Bununla belə, ayrı-ayrı qaynaqlarda Məhsətinin ayrıca əlyazma divanının olması haqqında qeydlərə rast gəlirik. XIX əsrin tanınmış Azərbaycan tarixçi alimi Marağalı Məhəmmədhəsən xan Etimadüssəltənin yazdığına görə, Məhsətinin ayrıca lirik şeirlər divanı olmuş, lakin bu əlyazma kitabı Übeydulla xan Özbəyin Herata hücumu zamanı məhv edilmişdir.

Məhsətinin günümüzə qədər gəlib çatan rübailəri həm ayrı-ayrı ədəbi təzkirələrdə, həm də çoxsaylı əlyazma toplularında özünə yer almışdır. Şairənin ədəbi irsinin ən qədim qaynaqları XIII-XIV yüzilliklərin yadigarlarıdır. Məhsəti

Gəncəvinin Azərbaycan poetik fikrindəki bənzərsiz yerindən, ədəbiyyatımızın inkişafındakı xidmətlərindən, zəngin yaradıcılıq axtarışlarından söhbət açarkən onun nə qədər istedadlı şəxsiyyət olduğunu görürük.

Yaxın Şərqdə bir-birindən az zaman fərqi ilə iki böyük rübai ustası yetişdi: İran şairi Ömər Xəyyam və azərbaycanlı Məhsəti Gəncəvi.

Məhsəti nəinki Xəyyamdan rübai estafetini qəbul edib ləyaqətlə davam etdirmişdir, həm də onu məna və məzmun baxımından zənginləşdirmiş, ona türk ruhu və intonasiyası gətirmiş, yeni lirik obrazlar, poetik təsvirlər, ürəkaçan deyimlərlə zənginləşdirmişdir. Elə buna görə də, o, Xəyyam ilə yanaşı, öz rübai məktəbini yaratmış, dünya lirik şeir dəftərinə öz imzasını qoymuşdur.

Təsadüfi deyildir ki, doqquz yüz ilə yaxın bir müddət ərzində Məhsətinin əsərləri müxtəlif qaynaqlarda qoruna-qoruna bizə gəlib çatmışdır. Yüksək sənətkarlıq örnəyi olan bu poetik dördlüklər ilk dəfə Almaniyada ədəbiyyatşünasların diqqətini cəlb etmişdir. Görkəmli şərqşünas Helmut Ritterin ardınca Frits Meyer Məhsəti irsini toplayaraq alman dilinə tərcüməsi ilə birgə çap etdirmişdir. Lakin keçən əsrin 60-cı illərindən sonra Azərbaycanda Məhsəti irsinin çağdaş elmi səviyyədə öyrənilməsi, tərcüməsi və nəşri böyük vüsət almışdır. Məhsətinin birbaşa varisi, Gəncə ədəbi mühitinin yetirməsi, xalq şairi Nigar Rəfibəylinin tərcümələri ilə Məhsəti rübailəri Azərbaycanda daha da populyarlaşmış, bu böyük sənətkar haqqında bir sıra elmi və bədii əsərlər yazılmışdır. Məhsəti Gəncəvinin 900 illik yubileyinin YUNESKO xətti ilə beynəlxalq səviyyədə qeyd edilməsi Azərbaycanda ədəbi – mədəni irsimizə nə qədər yüksək qayğı və diqqət göstərilməsinin birbaşa sübutudur. Məhsəti Gəncəvi XII əsr Azərbaycan şeirinin tarixində şərəfli bir yer tutmuşdur. Məhsəti Azərbaycan və Şərq ədəbiyyatının intibah dövründə yaşayıb. Həmin dövrdə Şərqin

ədəbi səmasında Nizami Gəncəvi, Əfzələddin Xaqani kimi dahi sənətkarlar şəfəq saçıb, Əbülüla Gəncəvi, Fələki Şirvani və Mucirəddin Beyləqani kimi görkəmli şairlər yaşayıb – yaradıb. Bu bir həqiqətdir ki, orta əsrlərdə qadın hüquqlarının məhdudlaşdığı bir dövrdə Məhsəti Gəncəvi kimi istedadlı şairənin yetişməsi özlüyündə əhəmiyyətli hadisə idi.

Parlaq şəxsiyyətləri ulduzlara bənzədənlər çox haqlıdırlar. Sönmüş ulduzların işığı yüzillər, minillər boyu insanlara çatmaqda davam edir. Məhsəti kimi ulduzların da işığının bizlərə gələn yolu alışdığımız təqvimlərlə, saatlarla deyil, işıq illəri ilə ölçülə bilər.

Məhsəti Gəncəvinin bizə gəlib çatan şeirləri göstərir ki, o, ərəb, fars dillərini, Şərq poetikasının incəliklərini gözəl bilib. Şərq poetikasının incəliklərini mükəmməl mənimsəyib. Əsərlərində işlətdiyi bədii vasitələr göstərir ki, o, yüksək istedada, incə zövqə və dərin mütaliəyə, geniş dünyagörüşünə sahib olub .

XII əsr Azərbaycan şeirinin tarixində Məhsəti Gəncəvi şərəfli bir yer tutur. Məhsətinin rübailəri içərisində ayrı-ayrı peşə sahiblərinin tərənnümünə həsr olunmuş bir sıra şeirlər vardır. Qeyd etmək lazımdır ki, bu şeirlər Yaxın Şərq ədəbiyyatında Məhsətidən əvvəl də məlum idi. Ayrı-ayrı sənət və peşə sahiblərinin ədəbiyyata gətirilməsi, onların əməyinin hər hansı şəkildə olursa-olsun, tərənnüm olunması, şübhəsiz, humanizmin, eləcə də intibahın təzahür formalarından biri sayılmalıdır. Düzdür Məhsəti rübailərində, məsələn, Nizami əsərlərində olduğu kimi sadə zəhmət adamlarının əməyi öz geniş əksini tapa bilmir. Məhsəti əmək adamlarının yadda qalan ümumiləşdirilmiş obrazlarını yaratmır. O, rübai kimi son dərəcə kiçik həcmli şeirlərdə belə bir vəzifənin öhdəsindən gələ bilməzdi. Lakin bununla belə Məhsətinin rübailərindən bəzilərində əmək adamlarından danışılması, onlara məhəbbət izhar olunması heç də təsadüfi deyildir. Məhsəti rübailəri ilə və

eləcə də bütünlükdə öz poeziyası ilə göstərilir ki, o, hər hansı konkret bir papaqçıya, torpaqələyənə və s. deyil, ümumiyyətlə, sadə zəhmət adamlarına aşiqdir, onlara məhəbbət bəsləyir.

Ey sarvan, səfərə vermisən qərar,
Məni qoyub getmə, üzgün canım var
Sənin dəvələrin adi yük çəkir,
Qəm yükü çəkirəm, məni də apar.

Şairənin bir qisim rübailərində aşiqin vüsal dəmlərində keçirdiyi sevinc hissiləri əks olunur. Şeirlərində insan gözəlliyinin geniş təsviri onun həyata bağlılığını və humanizmini göstərən cəhətlər hesab olunur. Səmimi duyğuların ifadəsi olan bu rübailərdə incə həyat məqamları gülümsəyir. Şərq intibahının bir çox nümayəndəsi kimi Məhsəti də öz əsərlərində insanı, onun duyğularını müdafiə edib. Təmiz insani münasibətləri quru ehkamlara, tərki-dünyalığa və riyakarlığa qarşı qoyub. Əsrarəngiz məhəbbət nəğmələri yaradıb. Məlumdur ki, insanın nəcib istək və arzularının qarşısına hasar çəkmək mümkün deyil. O, gec-tez hər cür sədləri aşaraq qurtulacaq.

Məhsəti Gəncəvinin sözü XII yüzildəki kimi bu gün də təravətlidir. XXI əsrin yüksəkliyindən görünən böyük həqiqət odur ki, bu gün dünyaya meydan oxuyan heç bir xalqın o əsrdə Məhsəti böyüklükdə şairəsi olmayıb. Doqquz əsrdir Məhsətinin hər biri çiçək kimi sevimli, həyat şövqü ilə dolu rübailəri nəsil-nəsil insanlarımızın zövqünü oxşayır, ruhunu təzələyir. Onun o çağkı yolu Gəncədən İrana, Orta Asiyaya qədər uzanırdı. Yazdığı, danışdığı dillər də türkcəydi, farscaydı, ərəbcəydi. Bu gün Məhsətinin izi dünyanın hər qitəsindədir, rübailəri ingiliscə, almanca, fransızca, italyanca ... danışır və hələ çox dillərdə də danışacaq. Bəli, Məhsəti real tarixi şəxsiyyət olub, yüksək poetik istedad sahibi olmuşdur. Məhsəti Gəncəvi sənət qüdrətinin böyüklüyü ilə Avropanın yaradıcı qadınlarından çox-çox yuxarıda dayanır. Onun qadın azadlığı

haqqındakı fikirləri, qaldırdığı sosial problemlər onu ədəbiyyat tariximizdə azadfikirliyin əzəl carçılarından olduğunun sübutudur.

Məhsəti Gəncəvi Azərbaycan şeirində ilk dəfə şəhraşüb janrına müraciət etmiş, bütün Şərq şeirində rübai – şəhraşüblar silsiləsinin ən mükəmməl örnəklərindən birini qələmə almışdır.

Dastanda onun Nizami Gəncəvinin yanında basdırıldığı göstərilir. Doğrudan da 1923-cü ildə Nizaminin məzarı Şah Abbas məscidində basdırılmaqdan ötrü çıxarılarkən onun yanında bir qadın cəsədi də tapılmışdır. Akademik Həmid Araslının dediklərinə görə bu iki dahi şəxsin yaşadığı tarixləri uzlaşdırmaq qeyri-mümkün olsa belə, onların tanışlığını istisna etmir. O, hətta Nizaminin bir şeirini də misal gətirərək, bu misraların Məhsətiyə ithaf olunduğunu ehtimal edir:

Sənin sənətin musiqi çalmaqdırsa,
Mən zil və bəm səsləri dinləmək istəyirəm
Sürməli kipriklərini yana dartma
Bir ox at, gözləyirəm
Bilirsən ki, sənsiz yaşamağa qüdrətim çatmır,
Əgər həyatımı istəyirsənsə, al, sənə verirəm.
Görürəm, əbəs yerə uğura ümid bağlamışam,
Mən son nəfəsimlə səni çağırıram.
Nizami öz canını sənə bağışlayır
Qəbul et, necə ki, mən iztirabları qəbul edirəm.

Və şübhə yox ki, onun yaratdığı yaşarı söz dünyası hələ neçə nəsil oxucuların könlünə məhrəm kəsiləcək, neçə nəsil araşdırıcını öz dolayısınca düşünməyə çağıracaq. Məhsəti Gəncəvi söz tariximizin ilk böyük şairəsidir. Şairənin tarixi şəxsiyyət olduğunu Fəridəddin Əttar, Şəmsəddin Məhəmməd Ben Qeys Razi, Həmdullah Qəzvini, Dövlətşah Səmərqəndi, Əmin Əhməd Razi, Qiyasəddin Xondəmir və başqa şairlər təsdiq edirlər. Haqqında yazılanlar onun bir sənətkar kimi Yaxın

Şərq İntibah mədəniyyətinin Xəyyam, Nizami, Hafiz, Xaqani kimi şairləri ilə bir sırada durduğunu göstərir. Bunu bir çox mənbələrdə verilmiş rübailər də sübut edir. Həmin mənbələrdən ən əhəmiyyətlisi Cəmaləddin Xəlil Şirvaninin tərtib etdiyi "Nizhətül – məcalis" adlı məcmuədir. Bu məcmuə hal-hazırda İstanbulun Carullah kitabxanasında saxlanılır. Çoxu azərbaycanlı olan 380 nəfər şairin əsərlərindən ibarət olan məcmuənin əsas əhəmiyyəti ondadır ki, burada hamıdan çox Məhsətinin rübailərinə yer verilmiş və 75 nümunə göstərmişdir.

Məhsəti Gəncəvi ilə bu günün oxucusu arasında doqquz əsrdən çox zaman ayrılığı durur. Lakin bu zaman sərhədinin uzaqlığı, adi məntiqlərin əksinə olaraq, Məhsətinin böyüklüyünü daha aydın görməyə imkan yaradır. Məhsəti Gəncəvinin irsi dünya, həyat, bəşər, insan münasibətləri haqqında poetik hekayələrdir. Bu şeirlər XII yüzildə yaransa da, fars orijinallarından belə bu gün asanlıqla başa düşülür, tərcümədə də ifadə etdikləri fikirlərə görə dünyanın ən müxtəlif xalqlarına doğma görünür. Adına küçə, məktəb, pedaqoji texnikum və s. var. Gəncədə muzeyi yaradılmış, heykəli qoyulmuşdur (1980).

Yaradıcı insan Məhsəti Gəncəvinin könül dünyası daha cazibədardır, təlatümlü, coşqun, üfüqləri isə daha geniş, zəngin və əlçatmazdır.

Rəfael Hüseynovun "Məhsəti, necə varsa" poetik tədqiqatı, M.H.Təhmasibin "Rübailər aləmində", Kəmalə Ağayevanın "Məhsəti" pyesləri ona həsr edilmişdir. "Rübailər" kitabı bir neçə dəfə buraxılmışdır. Biz Məhsətini daha inadla öyrəndikcə, onun dərin mənalı, zərif rübailərinin təkinə endikcə, ədəbi irsinin yeni-yeni nümunələrini üzə çıxardıqca, şeirimizin sonrakı inkişafına, təsirinə aid daha tutarlı yeni dəlillər tapdıqca onun istedadının, zəkasının böyüklüyünə heyranlığımız daha da artacaq. Və hər dəfə ədəbiyyat tariximizin bu bənzərsiz, mübariz elçisindəki şeir vergisinin yeni üfüqlərini kəşf etdikcə, onun ədəbi irsinə heyran olmamaq olmur. Ölməz sənəti ilə Məhsəti

bütöv Azərbaycanda özünə yaşar abidə ucaltdı. Rübailərindən başlayıb oxucularının ürəklərindən keçən bütün yollar Məhsətinin adını daşıyır. Şeirlərini oxuduqca Məhsətinin yaratdığı qəhrəmanlar gözlərimiz önünüdə canlanır.

## Yubiley tədbirlərinin keçirilməsi

Kamil insan günəşdən, aydan, ulduzlardan da əzəmətli, sirli-sehrli bir aləm, yazılmamış bir kitabdır. Məhsəti Gəncəvi məhz belə şəxsiyyətlərdəndir.

Məhsəti Gəncəvinin yubileyi münasibətilə respublikanın bütün mədəniyyət müəssisələrində, eyni zamanda kitabxanalarda yubiley tədbirlərinin keçirilməsi nəzərdə tutulmuşdur. Kitabxanalarda bununla əlaqədar maraqlı tədbirlər keçirmək olar.

Tədbiri keçirmək üçün kitabxana məktəblərlə, ali təhsil ocaqları ilə əməkdaşlıq etməlidir. Bu tədbirlər arasında sərgilər mühüm yer tutur. Sərgidə şairənin kitabları, müxtəlif mətbuat səhifələrində onun haqqında nəşr olunmuş məqalələr, onun fotoları nümayiş olunur. Sərgiyə kitablarla yanaşı şairə haqqında dövri mətbuatda çap olunan məqalələrin kartotekasını, şairə haqqında çəkilmiş sənədli və bədii filmlərin video-yazılarını, kaset və disklərini də əlavə etmək olar. Təşkil edilmiş yubiley sərgisinin qarşısında silsilə tədbirlər – söhbətlər, biblioqrafik icmallar keçirmək planlaşdırılmalıdır. Sərgi müxtəlif başlıqlar altında keçirilə bilər. Məsələn: “Ədəbiyyatımızda yaşayan həyat”, “Qüdrətli şairəmiz Məhsəti Gəncəvi”, “İradə və ifadə azadlığı olan yaradıcı Şərq qadını Məhsəti Gəncəvi”, “Xanımlar xanımı Məhsəti Gəncəvi”, “Məhəbbət şairəsi”, “Dünyəviliyi, humanizmi, nikbinliyi ilə seçilən şairə Məhsəti Gəncəvi”, “Şərq ədəbiyyatının incisi”, “Şəxsiyyətinin ucalığında dayanan sənətkar”, “Məhsəti necə varsa”, “Müəmmalar arxasından boylanan sənətkar”, “Azərbaycan poeziyasının inkişafına töhfələr vermiş şairə Məhsəti Gəncəvi”, “Rübai ustadı Məhsəti

Gəncəvi”, “Məhsəti Gəncəvi Azərbaycan intibahının hadisəsi kimi”, “Yaradıcı Şərq qadınının iradə və ifadə azadlığının klassik modeli – Məhsəti Gəncəvi”, “XII əsr Azərbaycan poeziya məktəbinin görkəmli nümayəndəsi Məhsəti Gəncəvi” və s.

İndi isə sərginin nümunəsini veririk.

Başlıq: “Dünyəviliyi, humanizmi, nikbinliyi ilə seçilən şairə”

Məhsəti Gəncəvinin portreti.

Görkəmli insanların Məhsəti Gəncəvi haqqında söylədikləri kəlamlar.

Dövri mətbuatda çap olunan məqalələrin kartotekası.

Məhsəti Gəncəvidən bəhs edən kitablarının nümayişi.

Şeir parçası.

Sərgi təşkili zamanı aşağıdakı sitatlardan istifadə etmək olar.

## Görkəmli şəxsiyyətlərin Məhsəti Gəncəvi haqqında söylədikləri fikirlər:

Məhsəti Gəncəvinin yaratdığı söz sənəti nümunələri insanı ucaldan yüksək bəşəri duyğular, nikbin ruh və dərin lirizmlə səciyyələnərək geniş şöhrət tapmış, sonrakı dövrlərdə bədii zövqün formalaşmasına mühüm təsir göstərmişdir.

**İlham Əliyev,**
*Azərbaycan Respublikasının Prezidenti*

Məhsəti Gəncəvi Ömər Xəyyam ilə yanaşı öz rübai məktəbini yaratmış, dünya lirik şeir dəftərinə öz imzasını qoymuşdur.

**M.S.Ordubadi,**
*şair, dramaturq*

Heç bir xalqın Məhsəti böyüklükdə şairəsi olmayıb. Millətinə bağışladığı bu əbədi birincilik və o birinciliyin gətirdiyi milli iftixar duyğusu Məhsəti Gəncəvini həmişə gənc edəcək.

**Nigar Rəfibəyli,**
*Xalq şairəsi*

Məhsəti Gəncəvinin irsi yığma, qurama rübailər toplusu deyil, bir düşüncədən, vahid poetik üslubdan doğan ədəbi hadisədir.

**Ziya Bünyadov,**
*Akademik*

Məhsəti Gəncəvi dahi söz ustaları Xaqani və Nizaminin sələfi, böyük Qətran Təbrizinin ləyaqətli xələfi olmuşdur.

**Qulamhüseyn Beqdeli,**
*professor*

Dünya şöhrətli rübailər yaradan Məhsəti həm mahir musiqiçi, həm də usta şahmatçı idi. Musiqi zərifliyi Məhsətinin rübailərinə çökübsə, şahmat mürəkkəbliyi onun taleyindən keçib. Vaxtın sərt külələri Məhsətinin şeirlərini və ömür yolu haqqında bilgiləri ən müxtəlif əlyazmalarının səhifələrində ölkə-ölkə, şəhər-şəhər yayıb.

**Mirvarid Dilbazi,**
*Xalq şairəsi*

Məhsəti nəinki Xəyyamdan rübai estafetini qəbul edib ləyaqətlə davam etdirmişdir, həm də onu məna və məzmun baxımından zənginləşdirmiş, ona türk ruhu və intonasiyası gətirmiş, yeni lirik obrazlar, poetik təsvirlər, ürəkaçan deyimlərlə zənginləşdirmişdir.

**Mahmud Kərimov,**
*Akademik*

Məhsəti Gəncəvi Şərq poetikasının üsullarından məharətlə istifadə edərək sevən qəlbin hislərini, sevincini, kədərini rəngarəng boyalarla qələmə almışdır. Məhsəti Gəncəvi Azərbaycan ədəbiyyatında öz yeri olan və gözə çarpan parlaq ulduzlardan biridir.

**Həmid Araslı,**
*Akademik, professor*

Məhsəti Gəncəvi uca varlığıyla, yaşarı irsiylə adının yanındakı Vətəni hər zaman qorudu. Bu gün şairə nə tək Gəncənin, nə tək Azərbaycanındır. O, Bəşəriyyətin Şairləri sırasında, Dünya vətəndaşları cərgəsindədir.

**Rəfael Hüseynov,**
*Millət vəkili, professor, yazıçı*

Məhsəti Gəncəvi ədəbiyyata yeni bir ruh, ab-hava gətirmişdir. Dini ideologiyanın hakim olduğu bir dövrdə şairə şeirlərində dünyəvi məhəbbəti tərənnüm etmiş, insanın istək və arzularına bəraət qazandırmışdır.

**Kəmalə Ağayeva,**
*Əməkdar mədəniyyət xadimi, şairə*

Məhsəti Gəncəvi Azərbaycan intibahının parlaq nümayəndəsi və həqiqətidir. O, Şərq poetikasının üsullarından məharətlə istifadə edərək sevən qəlbin hislərini, sevincini, kədərini rəngarəng boyalarla qələmə almışdır.

**Məmmədhüseyn Təhmasib,**
*professor*

Məhsəti Gəncəvi keçmişin, indinin və gələcəyin şairi olub, sözün əsil mənasında xanım, mübariz, haqq, ədalət, sevda yolçusudur.

**Fəridə Ləman,**
*"Məhsəti" Şairlər Məclisi ictimai birliyinin sədri*

Məhsəti Gəncəvi ayrı-ayrı sənət və peşə sahiblərini ədəbiyyata gətirməklə fərqlənməyi bacarmış, öz rübailərini Nizaminin əsərlərinin ilk rüşeyimi hesab etmişdir.

**Xəlil Yusifov,**
*Filologiya elmləri namizədi*

XII yüzildə dünyanın heç bir xalqının ədəbiyyatında Məhsəti qüdrətli, Məhsəti səviyyəli və Məhsəti istedadlı bir qadın şair olmamışdır.

**Solmaz Məmmədbəyli,**
*Elmi işçi*

Məhsəti Gəncəvi öz dövrünün humanist poeziyası ilə yaxından bağlı olduğundan insanı, onun gözəlliyini, istək və arzularını ifadə etmiş, onun həyat eşqinə, duyğularına bəraət qazandırmışdır.

**F. Meyer,**
*Şərqşünas*

XII əsrdə Məhsəti Gəncəvi kimi şairənin yetişməsi Azərbaycan xalqının ictimai-siyasi və mədəni həyatında qazandığı nailiyyətlərin təzahürüdür. O, intibah dövrünün Azərbaycan ədəbiyyatında öz yeri və dəst-xətti olan görkəmli sənətkarlardandır.

**Savalan Fərəcov,**
*jurnalist*

## Kitab sərgisi




























रफाएल हुसैनोव
मेहसेती
गनजेवी


Rafael Huseynov
Mehseti
Genjewi


Ραφαήλ Χουσεΐνοφ
Μεχσετί
Γκαντζεβί


רפאל הוסינוב
מהסטי גנג'בי


ラファエル・ホセイノフ
マヒセティ
ギャンジャヴィ


Rafael Husejnow
Mehseti
Gandżawi


Rafael Huseynov
Mehseti
Gändschawi


Rafael Juseynov
Mejsetí
Gandzhaví


Rafael Hüseynov
MEHSETİ
GENCEVİ

## Oxucularla söhbət

**Mövzu: Məhsəti Gəncəvi rübailərinin poetik xüsusiyyətləri**

**Kitabxanaçı:** Məhsəti Gəncəvi Azərbaycan mədəniyyətinin, ədəbiyyatının qədimliyinin timsalıdır. Azərbaycan ədəbiyyatı tarixinə ilk qadın şairə kimi daxil olmuş və dərin məzmunlu lirik şeirlər (rübailər) müəllifi kimi tanınmışdır. Doğrudur, Azərbaycan ədəbiyyatının Ə. Xaqani, N. Gəncəvi, İ. Nəsimi, M. Füzuli kimi klassik söz sənətkarları da rübai şeir şəklinin nümunələrini yaratmışlar, lakin Azərbaycan ədəbiyyatında rübai dedikdə, hamıdan əvvəl, Məhsəti Gəncəvi, Məhsəti dedikdə rübai yada düşür. Məhsəti Gəncəvinin rübailərindəki məzmun zənginliyi, ifadə əlvanlığı, deyiliş gözəlliyi həmişə oxucusunu məftun edib. Nizami yaradıcılığı üçün məsnəvi, Füzuli yaradıcılığı üçün qəzəl səciyyəvi olduğu kimi, Məhsəti Gəncəvi yaradıcılığı üçün də rübai səciyyəvidir. Məhsəti Gəncəvinin həyatı, yaradıcılığı haqqında geniş məlumat yoxdur, lakin əsrlərin süzgəcindən keçib dövrümüzə qədər gələn şeirlərindən aydın nəticəyə gəlmək olur ki, Məhsəti Gəncəvi lazımi təhsil görmüş, şeir texnikasına dərindən bələd, bədahətən şeir demək qabiliyyətinə malik olan bir şairə kimi tanınmışdır. Məhsəti Gəncəvi şeirləri – rübailəri indi də sevilə-sevilə oxunur. Şairənin əsərlərinin çox maraqla oxunmasının səbəbi məzmunla yanaşı, poetik tələblərə cavab verməsidir. Nəzərdə tutulan məzmunu ifadə edəcək müvafiq söz seçimi, qafiyə zənginliyi Məhsəti şeirinin əsas xüsusiyyətidir ki, yaddaqalmanı asanlaşdırır. Nümunə kimi, aşağıdakı rübaini nəzərdən keçirmək olar:

Bu dünya bir qızıl kuzəyə bənzər,
Suyu gah şirindir, gah da ki, zəhər
Çox da öyünmə ki, uzundur ömrün,
Əcəl köhlənində hazırdır yəhər.

Göründüyü kimi, rübaidə, insan həyatının keşməkeşliyini ifadə edən məzmun oxucunun diqqətini cəlb edir. İşlədilən sözlərin sırası, xüsusilə qafiyə təşkil edən, “bənzər”, “zəhər”, “yəhər” sözləri şeirdə qüvvətli ahəng yaradır. Doğrudur, şairənin rübailəri arasında hökmdarlara həsr olunmuş parçalar da var. Bir nümunəyə nəzər salmaq olar:

Ey şahım, hamıdan üstün bilərək
Bəxt atını sənə bəxş etdi fələk.
Qızıl nallı atın batmasın deyə
Yerlərə sərmişdir gümüş bir örpək.

Məhsəti Gəncəvi haqqında aparılan tədqiqatlardan aydınlaşır ki, o, Sultan Səncərin sarayına yaxın olmuşdur. Şah məclislərinin birində Məhsəti də iştirak edir. Məclisin müəyyən anında şairə bayıra çıxır və qar yağdığını görür, qayıdanda şah havanın necə olduğunu soruşur, Məhsəti şahın sualına cavab olaraq yuxarıdakı rübaini deyir. Lakin Məhsəti şeirlərinin qəhrəmanları, əsasən papaqçı, dərzi, bənna, çörəkçi və s. kimi sənətkarlardır.

Papaqçı sevgilim şövq ilə bayaq
Tikirdi əlində atlazdan papaq.
Hər papağa yüz-yüz afərin dedim,
Dördünə biri də bəs idi, ancaq…

Yaxud:

Çörəkçi yanında şagird olmuşam,
Müəzzindən qabaq yandıraram şam.
Oddan, sudan, undan qızıl çıxarıb,
Xərabatda qızıl ələrəm axşam.

Məhsəti Gəncəvi təsadüf etdiyi əhvalatla əlaqədar şeir deməyi bacaran, həm də dediyi şeirdə dərin fəlsəfi məna ifadə

edən bir şair olmuşdur. Nümunə kimi, aşağıdakı misraları nəzərdən keçirək:

Ey ağıllı qoca, deyilsən naşı,
Torpaq ələyənin cavandır yaşı.
De yavaş ələsin, çünki bu torpaq,
Pərviz bədənidir, Keyqubad başı.

Bu rübainin fəlsəfi mənasını, ondan çıxan tərbiyəvi nəticəni təsəvvür etmək çətin deyil: insan həyat ünsürlərindən biri olan torpaqdan yarandığı kimi, öləndən sonra da torpağa qarışır, qoca cavanı, bilən bilməyəni, böyük kiçiyi, usta şagirdi öyrətməlidir. Bunlar heç vaxt köhnəlməyən, hazırda əməl olunması zəruri sayılan mənəvi tələb hesab olunur. Məhsəti Gəncəvi lazımi təhsil görmüş, poetik tələblərə dərindən bələd olan, ədəbiyyatda rəmzləşən ifadələri öz məqamında işlətməyi bacaran müqtədir bir sənətkar olmuşdur. Klassik ədəbiyyatda bədən üzvlərinin formasına görə əski əlifbanın müxtəlif hərflərinə bənzədilməsinin rəmzləşdiyi məlumdur. Məhsəti Gəncəvi şeirlərində bu rəmzləri ustalıqla, sənətkarlıqla işlədir. Fikir aydınlığı üçün aşağıdakı şeir parçalarına baxmaq olar:

O mim ləbindədir bu dodaqlarım,
O gümüş qoynundur güllü baharım…

İki ayrı canda bir ürəyik biz,
Bilirəm qədrini, nadir mirvarım!

“Mim” əski əlifbasında “m” hərfinin adıdır. İnsanda kiçik ağız gözəllik əlamətidir və m hərfinə bənzədilir.

Yaxud:

O sərraf oğlunun aşiqiyəm mən,
Eyn, şin və qafa vurğunam qəlbən.
İnsanam, axır sin, nun, kaf deyiləm,
Nə istər o süzgün baxışlı məndən?

Məhsəti Gəncəvi misralarda süzgün baxışların təsvirindən doğan dərin məhəbbət hissinin yaranmasını ifadə etmişdir. Bu məhəbbət hissini ərəb əlifbasında hərflərin yaratdığı iki sözün müqayisəsi yolu ilə ifadə etməkdə çox böyük ustalıq göstərmişdir. Belə ki, ikinci misrada adları çəkilən “eyn”, “şin”, “qaf” hərflərinin birləşməsindən yaranan “Eşq” sözü, üçüncü misrada adları çəkilən “sin”, “nun” və “kaf” həriflərinin yaratdığı “səng” (daş) sözü ilə (ərəb əlifbasında sait səslər yazıda ifadəsini tapmır) müqayisə etmişdir. Lirik parçanın məzmunu belədir: “Sənin baxışların məndə sənə qarşı olan eşqin (məhəbbətin) ifadəsidir. Mən daş deyiləm, bu süzgün baxışların mənasını başa düşürəm: Məhsəti Gəncəvi sözün müxtəlif çalarlarından məqamında məharətlə istifadə etməyi bacaran bir şairdir. Eyni sözün müxtəlif mənalarda işlədilməsi Məhsəti rübailərinin poetik xüsusiyyətlərindəndir. Aşağıdakı rübaini bu baxımdan nəzərdən keçirməyi lazım bilirik.

Xöşbəxtdir rüxünə rüx qoysa hər kəs,
Rüxün eyləyəni şah edə bilməz.
Mən oyuna baxım, yoxsa rüxünə?
Bu halda neyləyim, mat qalmayım bəs?

Şair həmin rübaidə bu gün də fikri prosesin, düşüncənin fəallığı üçün çox mühüm vasitə olan şahmat oyununun xüsusiyyətindən danışır. Cəmi 4 misradan ibarət olan şeir parçasında rüx sözü bir neçə dəfə təkrar olunur, lakin həmin sözlər ayrı-ayrı mənalarda işlənir: Birinci misrada rüx sözü fars dilində üz mənasında işlədilmişdir. İkinci misradakı rüx sözü gedişi ilə fərqlənən şahmat oyunundakı fiqurun adıdır.

Yuxarıda qeyd edildiyi kimi, Məhsəti Gəncəvinin bədahətən söz demək qabiliyyətinə malik olmasıdır ki, rübaidə öz əksini tapır. Belə ki, bütün tədqiqat əsərlərində deyildiyi kimi, Məhsəti Gəncəvi gözəl şahmat oynamağı sevirmiş. Bu rübainin yaranma tarixçəsi belə olmuşdur: həyat yoldaşı Xətiboğlu ilə şahmat

oynayır. Rübaidən də aydın olduğu kimi, Xətiboğlu simaca gözəl bir adam olub. Xətiboğlu oyun prosesində rüxlə(vəzirlə) şah elan edir. Məhsəti xanımın şahı gizlətməyə yeri olmadığı üçün mat vəziyyətdə qalır. O, pərt olmamaq üçün bədahətən həmin rübaini deyir. Rübainin lirik məzmunu ondan ibarətdir ki: sən o qədər gözəlsən ki, sifətinin gözəlliyi mənim diqqətimi cəlb elədi, fikrim oyundan yayındı. Belə halda mən necə mat olmayım. Gətirilən nümunələrdən aydın olur ki, Məhsəti Gəncəvi təsirləndiyi hər kiçik hadisə ilə bağlı bədahətən şeir deməyə qadir olmuşdur. Həm də bu şeirlər poetikanın tələblərinə cavab verən ahəngi, qafiyə sistemi, ölçüsü ilə oxucunun diqqətini cəlb edən, dərin fəlsəfi məna daşıyan nümunələrdir. Məhsəti Gəncəvi rübailəri başqa klassik söz sənətkarlarının əsərləri kimi, xalqın milli sərvətidir. Doqquz əsrin sənət süzgəcindən keçib gələn bu nümunələri gəncliyə çatdırmaq isə bizim vəzifəmizdir. Hazırda, başqa sahələrdə olduğu kimi, ədəbiyyatda da kirikulum və dərsliklərin hazırlanması üzərində iş davam edir. Azərbaycan ədəbiyyatında M.Gəncəvinin yerini nəzərə alaraq, inteqrasiya yolu ilə Məhsəti rubailərinin mahiyyətinin gəncliyə çatdırılması məqsədə uyğun olardı. Belə ki, həmin rübailər şagirdin düşünmə qabiliyyətinin artırılmasına, nitqinin inkişaf etdirilməsinə fayda verəcəyi şübhəsizdir.

Orta yaş qrup oxucular arasında Məhsəti Gəncəvinin yubileyi münasibətilə sual-cavab gecələri, testlər və ya ədəbi viktorinalar təşkil oluna bilər. Sual-cavab gecəsi kitabxanaçı tərəfindən təşkil olunur və oxuculara suallar təqdim olunur.

**Suallar:**

1.Məhsəti Gəncəvi neçənci əsrdə yazıb-yaratmışdır?

Cavab: M.Gəncəvi XII əsrin əvvəllərində yazıb-yaratmışdır.

2. Məhsəti Gəncəvi kimdir?

Cavab: Məhsəti Gəncəvi gözəl şairə, rübai ustası, tarixi şəxsiyyətdir. Onun tarixi şəxsiyyət olmasını Fəridəddin Əttar,

Şəmsəddin Məhəmməd Ben Qeys Razi, Həmdullah Qəzvini, Dövlətşah Səmərqəndi, Əmin Əhməd Razi, Qiyasəddin Xondəmir və başqa şairlər təsdiq edirlər.
3. Məhsəti Gəncəviyə həsr olunmuş əsərlər haqqında nə məlumatınız var?
Cavab: Gövhəri Zərgərin "Əmir Əhməd və Məhsəti" dastanı, Mirvarid Dilbazinin "Məhsəti" pyesi, Nigar Rəfibəylinin "Məhsəti" poeması, Kəmalə Ağayevanın "Məhsəti" pyesi, Fəridə Ləmanın "Məhsəti" şeiri və s.
4. Məhsəti Gəncəvi haqqında yazılmış kitablar haqqında nə məlumatınız var?
Cavab: Rəfael Hüseynovun "Məhsəti necə varsa", "Məhsəti Gəncəvinin özü, sözü, izi", Frits Meyerin "Gözəl Məhsəti" kitabları və s.
5. Məhsəti adı nə məna kəsb edir?
Cavab: Məh sözü ay və böyük mənasını, siti isə xanım mənasında işlənmişdir.
6. Hansı şairlər Məhsəti Gəncəvi ilə eyni dövrdə yazıb, yaratmışlar?
Cavab: Nizami, Xaqani, Əbül-Üla, Mucirəddin və s.
7. Hansı şairlərin, yazıçıların əsərlərində Məhsətinin adına rast gəlmisiniz?
Cavab: Məhsəti Gəncəvi haqqında ilk qeyd Nizami Gəncəvinin "Xosrov və Şirin" əsərində verilmişdir. Bundan başqa M. S. Fəridəddin Əttarın "İlahinamə" əsərində, M. S.Ordubadinin "Qılınc və qələm" romanında da tarixi şəxsiyyət kimi Məhsətinin adı keçir.
8. Məhsəti Gəncəvi şairlikdən başqa, hansı qabiliyyətlərə malik idi?
Cavab: Gəncənin intibah havalı münbit ədəbi mühitində solmaz rübailər yaradan Məhsəti həm də mahir musiqiçi və usta şahmatçı idi.

9. “Əmir Əhməd və Məhsəti” dastanındakı Əmir Əhməd kimdir?
Cavab: Əmir Əhməd tarixi şəxsiyyət olub, Gəncə xətibinin oğludur. Tarixdə Əmir Əhmədin də çox gözəl, bədahətən rübailər deməsi haqqında məlumatlar vardır.
10. Məhsəti Gəncəvi ömrünün müəyyən hissəsini hansı Sultanın sarayında keçirmişdir?
Cavab: Məhsəti Gəncəvi ömrünün müəyyən hissəsini Sultan Mahmud Səlcuqi və Sultan Səncər sarayında keçirmişdir.
11. Məhsəti Gəncəvinin rübailəri hansı dillərə tərcümə edilmişdir?
Cavab: İngilis, italyan, alman, fransız və s. dillərə tərcümə olunmuşdur.
12. Məhsətinin dövrümüzə gəlib çatan əsərləri haqda nə məlumatınız var?
Cavab:Məhsətinin lirik şeirlər divanı olmuş, lakin bu əlyazma kitabı Übeydulla xan Özbəyin Herata hücumu zamanı məhv edilmişdir. Hal-hazırda Məhsəti Gəncəvinin 257 rübaisi, 30 yaxın şeiri dövrümüzə qədər gəlib çıxmışdır.

Sual-cavab gecəsinin sonunda kitabxanaçı uşaqlara diqqətli olmalarına görə öz təşəkkürünü bildirir, sualları düzgün cavablandıran oxucunu mükafatlandırır və Məhsəti Gəncəvinin həyat və yaradıcılığı haqqında daha dərindən maraqlanmalarını tövsiyə edir.

Kitabxanada Klassik Azərbaycan ədəbiyyatının ən qüdrətli nümayəndələrindən biri olan, bütün Yaxın və Orta Şərqdə rübai ustadı kimi tanınan Məhsəti Gəncəvidən bəhs edən ədəbiyyatların icmalını keçirmək, bu tarixi şəxsiyyətin yaradıcılığından bəhs edən diskussiyalar da təşkil etmək olar. Diskussiyalar keçirilərkən, Məhsəti haqqında yazılmış dastanlardan, poemalardan, pyeslərdən, dramlarından söhbət açılır və bu haqda oxucuların fikirləri öyrənilir. Məhsəti Gəncəvidən bəhs edən “Məhsəti və Əmir Əhməd” dastanı

üzərində diskussiya aparаrkən, əvvəlcə dastanın qısa məzmunu haqda tədbir iştirakçılara məlumat verilir.
*Diskusiyanı təşkil edən kitabxanaçı "Məhsəti və Əmir Əhməd" dastanının qısa məzmunu danışır.*

Dastanın qısa məzmunu belədir: Bəlx şəhərində yaşayan bir ilahiyyat aliminin qızı olur. O, uşağın taleyinə baxdırmaq üçün münəccimlərə müraciət edir. Ulduzlar qızın böyük gələcəyindən, xalqın rəğbət və məhəbbətini qazanacağından xəbər verir. Həmçinin məlum olur ki, qızın taleyi xərabatla bağlı olacaqdır. Atası qızı tərbiyə olunmaq üçün məktəbə verir. On səkkiz yaşına qədər burada oxuyan qız yaxşı təhsil görür. Bundan sonra atası qızını mütəxəssislərin yanına apararaq, ona 12 muğamı və bunların 24 şöbəsini öyrətmələrini xahiş edir. O, həmçinin xahiş edir ki, musiqiçilər qıza cəng, ud və bərbəd alətlərində çalmağı öyrətsinlər. Atasının vəfatından sonra Məhsəti Gəncəyə köçür və Xərabat məhəlləsində yaşayır.

Dastandan da göründüyü kimi, artıq 20 yaşında Məhsəti öz savadı, gözəlliyi, məlahətli səsi və poetik istedadı ilə müsəlman dünyasının bir çox ölkələrində nüfuz və rəğbət qazanmışdı. Xərabatda Məhsətinin səsini dinləmək üçün uzaqdan-yaxından həm əyanlar, həm də tacirlər Gəncəyə gəlirdi.

Uzun illərin intizarından sonra nəhayət, Gəncə xətibinin bir oğlu olur. Uşaqın adını Əmir Əhməd qoyurlar. Onu körpəliyindən tərbiyəçiyə verir, dörd yaşından isə məktəbə göndərirlər. Əmir Əhməd özünü olduqca bacarıqlı və istedadlı bir uşaq kimi göstərir və doğma şəhərindən bircə addım aralanmasa da, onun kamalının şöhrəti uzaqlara yayılır. Bir dəfə Əmir Əhməd yuxusunda görür ki, cənnətə düşüb və bir huri şərab dolu piyalə ilə onu qarşılayır. Əmir Əhməd şərabı nuş edir və həmin andan o hurinin gözəlliyi ilə məst olur. Səhər atası görür ki, Əmir Əhməd pərişandır. Onun qüssəsini dağıtmaqdan ötrü 400 atlı götürüb, Gəncəni gəzməsinə icazə verir. Əmir Əhməd məhəllələrin birindən keçəndə musiqi sədaları eşidir və

öyrənir ki, bura Xərabatdır. Oradakı meyxanələrdən birində dörd mütəkkənin üstündə oturmuş bir qız görür. Bu, Məhsəti Gəncəvi idi. Əmir onun yuxuda gördüyü huri olduğunu kəsdirir. Gənclər bir-birinə aşiq olur və rübailərlə şeirləşirlər. Həmin gecə yatmazdan əvvəl oğlunun Quran əvəzinə rübailər oxuduğunu görən Xətib bərk təəccüblənir. Xərabatdan qayıtmış oğlunun davranışı onu narahat edir. Xətib hətta onu həkimə də göstərir, sonra isə evləndirmək qərarına gəlir. Lakin heç nəyin xeyri yoxdur. Əmir Əhməd dediyindən dönmür və təkbaşına Xərabata, Məhsətinin yanına gedir. Məhsətinin anası onun kimin oğlu olduqunu biləndə xoşagəlməz hadisə baş verəcəyindən qorxub, onu evlərinə göndərməyi xahiş edir. Cavanlarsa onun sözlərinə məhəl qoymurlar. Xətib oğlunu geri qaytarmaq istəyir və hətta Gəncə şahına şikayət də edir, lakin oğlan ipə-sapa yatmır. Belə olduqda atası Əmir Əhmədin ardınca öz adamlarını göndərir. Onlar onu tutub, zindana atırlar. Üç gün - üç gecə atasının əxlaqa dair nəsihətlərini dinlədikdən sonra Əmir Əhməd onun dediklərinə razı olduğunu bildirir və azadlığa çıxır. Xətib sevindiyindən zəngin bir ziyafət düzəldir. Ziyafət başa çatandan və qonaqlar dağılışandan sonra isə Əmir Əhməd baş götürüb, yenə Xərabat tərəfə gedir. Əmir Əhməd Məhsətini burada 40 incəbel qızın əhatəsində görür. Onlar ney, çəng, dəf çalır, oxuyur, rəqs edirdilər. Məhsəti musiqi dərsi keçirdi. Burada o, artıq qarşımızda başqa görkəmdədir-nəinki şeir yazır, oxuyur, bir çox alətlərdə çalır, həmçinin musiqi və rəqs dərsləri də keçə bilir.

O dövrün musiqi sənəti və musiqi mühiti ilə tanışlıq üçün dastanda Gəncə şahının Məhsətinin şərəfinə verdiyi ziyafətin təsviri də maraqlıdır. Burada musiqi bir qayda olaraq, cənkdə, udda, bərbəddə, əbrişimdə, neydə və tənburda böyük sənətkarlıqla ifa olunur.

Daha sonra biz dastandan Məhsətinin Gəncədə ən güclü şahmat ustası olduğunu öyrənirik. Həmin qəbulda Gəncə şahı

Məhsəti ilə şahmatda da gücünü sınayır. Başqa bir yerdə şahın Əmir Əhmədlə mərc gələrək, min dinardan şahmat oynaması göstərilir. Əmir Əhməd qələbə çalır və şah borcunu qızıl pulla ödəyir.

Bir dəfə Məhsətini yenə saraya, Gəncə şahının hüzuruna çağırırlar. Nəyə görəsə qəzəblənmiş hökmdar əmr edir ki, Məhsətini öküz dərisinə bürüyüb, zindana atsınlar.

Ancaq altı gündən sonra yerli əyanların xahişi ilə şairəni zindandan çıxarırlar və o, qəzəblə şahı ifşa edən şeirlər söyləyir.

Başqa bir yerdə qış ovu zamanı şairənin Gəncə şahına qar haqqında bədahətən şeir söylədiyi göstərilir. Bu şerin məzmunu haqda yuxarıda bəhs edilib. Şerin gözəlliyindən vəcdə gələn şah şairəyə at bağışlayır. Lakin müstəbid şah tələb edir ki, sevgililər ayrılsınlar və Məhsəti köçüb biryolluq sarayda yaşasın. Məhsəti Əmir Əhmədə təklif edir ki, Bəlx şəhərinə qaçsınlar. Əvvəlcə şairə özü oraya gedir. Onun gəlişi şərəfinə Bəlxin və bütün Xorasanın şairləri buraya yığışır. Şeir yarışı başlanır. Məhsəti poetik tapmaca söyləyir. Heç kim onu aça bilmir.

Yarışın bu yerində heç kimin tanımadığı bir şəxs peyda olur və tapmacanın cavabını gözəl bir şeirlə söyləyir. Hamı anlayır ki, onların qarşısındakı şəxs Əmir Əhmədddir. Dastanın sonunda bildirilir ki, sevgililər doğma Gəncəyə qayıdır, öz nigahlarını rəsmi şəkildə bağlayırlar və bu nikahdan onların iki övladı olur.

Atası öldükdən sonra Əmir Əhməd Gəncənin xətibi olur. Sonra o özü də rəhmətə gedir. Məhsəti Əmir Əhmədin ölümünə o qədər göz yaşı tökür ki, axırda gözləri tutulur. Şairə öz sevgilisindən sonra cəmisi iki il yaşaya bilir.

*Dastan haqqında məlumat verildikdən sonra kitabxanaçı tədbirdə iştirak edən oxuculara "Məhsəti və Əmir Əhməd" dastanından bəhs edən suallar verir, onlarla diskussiya aparır. Ən fəal oxucu kitabxana tərəfindən mükafatlandırılır.*

Kitabxanalarda oxucular tərəfindən sevilən tədbirlərdən biri də müsabiqələrdir. Bildiyimiz kimi Məhsəti Gəncəvi bir-birindən maraqlı rübailərin müəllifidir. Həmin rübailər kitabxananın fəal oxucuları tərəfindən ifa olunur. Rübaini ən gözəl söyləyən oxucu mükafatlandırılır. Müsabiqə zamanı həmin rübailərə, "Məhsəti və Əmir Əhməd" dastanına uşaqlar tərəfindən illüstrasiyalar çəkilməsi tapşırılır. Şəkilərin hazırlanması üçün uşaqlara iki həftə vaxt verilir. Bu vaxt ərzində oxucular həm Məhsəti Gəncəvidən bəhs edən dastanı, Məhsətinin rübailərini oxuyur, ən çox bəyəndikləri rübailərə illüstrasiyalar çəkirlər. Ən gözəl məna kəsb edən rəsm işləri mükafatlandırılır. Həmçinin rəsm müsabiqələri üçün məktəblərarası yarışmalar da təşkil etmək olar.

Rəsm müsabiqələri ilə yanaşı, başqa müsabiqələrin də təşkili mümkündür. Məsələn, uşaqların ifasında Məhsəti Gəncəvidən bəhs edən dastan, poema, pyeslər səhnələşdirilərək münsiflərə təqdim olunur. Münsiflər heyəti kitabxana müdirindən, teatrımızın görkəmli nümayəndələrindən təşkil edilir. Yaxşı olar ki, tədbirə Məhsəti yaradıcılığı ilə yaxından maraqlanan şair və yazıçılar dəvət olunsun.(Rəfael Hüseynov, Kəmalə Ağayeva və s.) Əsəri ən gözəl səhnələşdirilən uşaqlardan ibarət komanda mükafatlandırılır.

*Kitabxanaçı tədbir iştirakçılarına üzünü tutaraq söyləyir:*

*Əziz qonaqlar, tədbir iştirakçıları indi isə gəlin məktəbli oxucularımızın ifasında hazırlanmış səhnəciyi sizə təqdim edək. Uşaqlar Mirvarid Dilbazinin "Məhsəti" pyesini səhnələşdirirlər. Səhnə dekorasiyalarla bəzədilir. İştirakçılar əsərə uyğun geyimlərdə səhnəyə çıxırlar. Səhnəcikdə Məhsəti, Cahan qarı, Qoca iştirak edirlər. Cahan qarı Məhsətiyə üzünü tutub söyləyir.*

Cahan qarı: Qapına gəlibdir bir qoca kişi.
Məhsəti: Xoş xəbərlə olsun onun gəlişi.
Cahan qarı: Üzündən, gözündən qüssə - qəm yağır.

Məhsəti: Gəlmək istəyirsə içəri çağır.
*İçəri yoxsul geyimli nurani bir qoca girir, salam verib susur.*

Məhsəti: Atacan, sən kimsən, de adın nədir?
Buraya gəlməkdən muradın nədir?

Qoca: Goranlı Nəsibdir adım, ay bala,
Adını eşidib çıxmışam yola.
O şairə sənsən, ay qızım, deyən,
Altı igid oğul atasıyam mən
Onlar döyüşlərdə qurban gedəli,
Boğur külfətimi qıtlığın əli.
Kəndliyəm, nə odum, nə ocağım var,
Nə əkib-biçməyə öz torpağım var.
Altı oğul verdim, vətənə qurban,
Onların atası ölüb acından,
Körpə balaları daxmada acdır,
Sənin köməyinə onlar möhtacdır.
Kəklik əti yeyir şah tulaları,
Ölür əsgərlərin ac balaları.
Əlim işləməkdən qabar-qabardır,
Ancaq bunun bizə nə xeyri vardır,
İşləyib, ac ölmüş nəsillərimiz,
Şahların, xanların qullarıyıq biz.

*Sözləri deyib, kişi doluxsunur. Məhsəti üzünü qocaya tutub, söyləyir.*

Məhsəti: Baba, gəlişindən könlüm oldu şad,
Mənə o körpələr qoy olsun övlad.
Sizin göz yaşınız şahlara çatmaz
Yatmış vicdanları bu səs oyatmaz
Min əsgər uşağı ölsün acından,
Şahların bir tükü tərpənməz, baba!

Bir gövhər əskilsə onun tacından
Müqəssir sayılar bu el, bu oba.
Özün ki, arifsən, nə deyim sənə,
Babacan, mehrimin ucundan mənə
Vermiş Xətib oğlu xeyli bağ-bağat.
Daha o sənindir, halal malındır.

*Qoca təccüblə Məhsətiyə baxıb, deyir:*

Qoca: Qızım, sən qadınsan, ərsə zalımdır

Məhsəti:Sən Xətib oğlunu sanma zalım ər,
Onun şair qəlbi dünyaya dəyər.

*Məhsəti qocaya kisə ilə dolu pul verir və deyir:*
Al, kim əsirgəyər səndən varını,
Altı cəngavərin yadigarını
Bu hala salanlar utansın gərək.

*Qoca çox kövrəlir və söyləyir:*
Qızım, nə incədir səndəki ürək
Şairdir elin də şahı – sultanı.
Qılınc poza bilməz qələm yazanı.

*Qoca gedir, Məhsəti dalğın- dalğın qocanın dalınca baxıb, deyir:* Şahların daş-qaşla dolanda tacı,
Çoxalır millətin yoxsulu, acı.

*Tamaşanın sonunda iştirakçılar tədbir iştirakçıları ilə sağollaşıb, səhnədən ayrılırlar. İştirakçılar müdiriyyət tərəfindən mükafatlandırılır.*

Kitabxanalarda yuxarı sinif şagirdlərinin iştirakı ilə "Məhsəti Gəncəvinin yaradıcılığı müasir gəncliyin gözü ilə" konfrans da təşkil etmək mümkündür. Konfransdan öncə onun proqramı tərtib olunmalı, konfransın keçiriləcəyi dəqiq vaxt müəyyən olunmalıdır. Proqramda konfransda çıxış edəcək qonaqların, ədəbiyyatşünasların və şagirdlərin adları, onların çıxış

edəcəkləri mövzular, tədbirin keçiriləcəyi məkan və zaman qeyd olunur. Konfrans zamanı Məhsəti Gəncəvinin yaradıcılığına yaxından bələd olan jurnalist, yazıçı və şairlərin çıxışları dinlənilir. Oxucu konfransının planını sizə təqdim edirik:

**1.**Giriş hissə (Məhsəti Gəncəvinin həyat və yaradıcılığı haqqında məruzə)

**2.**Məhsəti Gəncəvinin yaradıcılığı haqqında kitabxana rəhbərliyinin, jurnalist, yazıçı və şairlərin çıxışları.

**3.**Yuxarı sinif şagirdlərindən ibarət olan oxucuların Məhsəti Gəncəvinin rübailəri ətrafında müzakirələri.

**4**.Yazıçının əsərlərindən bir neçə parçanın səhnələşdirilməsi.

**5.** Konfransın yekunu.

Məhsəti Gəncəvinin irsinin təbliği üçün ədəbi-bədii gecələrin keçirilməsi zəruridir. Gecəni "Rübai ustadı Məhsəti Gəncəvi" başlığı ilə adlandırmaq olar. Tədbirin ssenarisini sizə təqdim edirik.

*Səhnə şairənin portreti, rübailəri, Məhsəti və Əmir Əhməd"dastanını əks etdirən şəkillərlə bəzədilir. Səhnənin bir tərəfi şairə haqqında bir çox şair və yazıçıların yazdığı əsərlərlə, Məhsəti Gəncəvinin rübailəri, şairə haqqında yazılmış sitatlarla bəzədilir. Tədbir kitabxana rəhbərliyi tərəfindən açıq elan olunur. Gecəyə Məhsəti Gəncəvinin yaradıcılığına yaxından bələd olan tanınmış yazıçılar, tənqidçilər, jurnalistlər dəvət olunur. Yaxşı olar ki, tədbirə Millət vəkili, yazıçı Rəfael Hüseynov, Əməkdar mədəniyyət işçisi, şairə Kəmalə Ağayeva dəvət olunsun.*

*Aparıcılar səhnəyə çıxırlar.*

**I aparıcı**: Əziz və hörmətli tədbir iştirakçıları. Hər birinizi xoş gördük. Bu gün bizim bura yığışmaqda məqsədimiz zəngin ənənələrə malik çoxəsrlik Azərbaycan poeziyasının tanınmış nümayəndəsi Məhsəti Gəncəvinin yubileyini qeyd etməkdir. Bildiyimiz kimi Məhsəti Gəncəvinin yaratdığı söz sənəti

nümunələri insanı ucaldan yüksək bəşəri duyğular, nikbin ruh və dərin lirizmlə səciyyələnərək geniş şöhrət tapmış, sonrakı dövrlərdə bədii zövqün formalaşmasına mühüm təsir göstərmişdir. Şairənin ədəbi şəxsiyyəti yaradıcı Şərq qadınının fikir və mənəvi azadığının parlaq təcəssümü kimi Qərb şərqşünaslarının əsərlərində çox yüksək dəyərləndirilmişdir. Məhsəti Gəncəvi yaradıcılığının yubileyinin dövlət səviyyəsində qeyd olunması haqqında prezidentimiz İlham Əliyev sərəncam vermiş və bu iş YUNESKO-nun görkəmli şəxsiyyətlərin və əlamətdar hadisələrin qeyd olunması proqramına daxil edilmişdir. Məhsəti şeir tariximizdə təcnisi rübai çərçivəsinə sığışdıran və bu növ şeirin müntəxəbatlara düşməyə layiq incilərini yaradan geniş nəfəsli sənətkardır. Məhsəti Gəncəvinin xalq şeiri tərzinə yaxın formalı rübailəri və öz fəlsəfi mahiyyəti etibarilə dərin məzmunlu şeirləri Azərbaycan və ümumən Şərq poeziyası tarixində mühüm rol oynamışdır. Vaxtın sərt küləkləri Məhsətinin şeirlərini və ömür yolu haqqında bilgiləri ən müxtəlif əlyazmalarının səhifələrində ölkə-ölkə, şəhər-şəhər yayıb. Məhsəti surəti ədəbiyyatımızın böyük dövrü, nəsr və şeirimizin bir neçə nəsli üçün məhrəm görünüb və bu barədə oxunumlu əsərlər də yaradılıb. Oxucularımız Məhsəti Gəncəvinin rübailərini birinci dəfə Nigar Rəfibəylinin tərcümələrində görüblər.

*Söhbət Nigar Rəfibəylinin tərcümələrindən düşmüşkən, gəlin oxucularımızın ifasında Məhsəti Gəncəvinin rübailərindən bir parçaya qulaq asaq.*

I Oxucu: Xalqın başında gər olsan da bir tac,
Ağladar səni də bir gün ehtiyac.
Xalqın dərdinə qal, ona yaxın ol,
Qorx o gündən özün olasan möhtac.

II Oxucu: Bu dünya bir qızıl kuzəyə bənzər,
Suyu gah şirindir, gah da ki, zəhər
Çox da öyünmə ki, uzundur ömrün,
Əcəl köhlənində hazırdır yəhər.

I Oxucu: Qızıl dedi: "Mənəm hər günə gərək,
Duz kimi möhtacdır mənə hər xörək.
Məni ölü kimi basdırmayın siz,
Həyat üçün mənəm ən yaxın kömək"

II Oxucu: Boy-buxunu, çiyni nöqsanlıdan dad,
Namərd kişilərdən yaxşıdır arvad.
Bivəfa dostlardan düşmən yaxşıdır,
Etibarsız dostu yadından çıxart.

I Oxucu: Nədən səni belə yandırdılar, şam,
Yaddan çıxartdılar burda bir axşam?
Sən özün dilə gəl, neyləsin, əgər
Yaranmışsa ancaq yanmaqçün adam?!

II Oxucu: Arvadla kişini bağlayır kəbin,
Bu işə yol verir şəriət, ayin.
Mənimsə kəbinim bir rübaidir,
Varmı bu kəbinə yol verən, bir din?

*Rübailəri söylədikdən sonra, oxucular alqış sədaları altında səhnədən ayrılırlar.*

**II aparıcı:** Məhsətinin həyatı və şeirləri öz zəmanəsindən başlayaraq şeir və sənət adamlarının diqqətini cəlb etmişdir. Orta əsrlərdə onun haqqında rəvayət və dastanlar yaranmışsa, müasir sənətkarlar ona poemalar, romanlar həsr etmişlər. M. S. Ordubadinin "Qılınc və qələm" romanında Məhsəti müdrik, xalq tərəfdarı olan sənətkar kimi təqdim olunmuşdur. Mirvarid

Dilbazinin poemasında, Nigar Rəfibəylinin şeirində, Kəmalə Ağayeva və Məmmədhüseyn Təhmasibin pyeslərində isə o, xəlqi, humanist bir şairə kimi canlandırılmışdır. Məhsətinin rübailərinin bir qismi Frits Meyer tərəfindən 1963-cü ildə "Gözəl Məhsəti" adı altında çap edilmişdir. Məhsəti Gəncəvinin bizə gəlib çatan qəsidə, qitə və rübailəri göstərir ki, o, ədəbiyyata yeni bir ruh, ab-hava gətirmişdir. Dini ideologiyanın hakim olduğu bir dövrdə şairə şeirlərində dünyəvi məhəbbəti tərənnüm etmiş, insanın istək və arzularına bəraət qazandırmışdır. O, Şərq poetikasının üsullarından məharətlə istifadə edərək sevən qəlbin hislərini, sevincini, kədərini rəngarəng boyalarla qələmə alır.

Dərdinlə sənin hər gecə bir qəm gördüm
Ağlar gözümü həsrət ilə nəm gördüm
Nərgiz gözün aldatdı, yuxum qeyb oldu
Ömrümdə şirin bir yuxu mən kəm gördüm.

**I aparıcı:** XII əsrdə belə istedadlı qadın şairin yetişməsi həmin dövrdə Azərbaycan xalqının ictimai-siyasi və mədəni sahədə qazandığı nailiyyətlərin təzahürlərindən biridir. Məhsəti Gəncəvi Azərbaycan ədəbiyyatında öz yeri olan və gözə tez çarpan parlaq ulduzlardan biridir. Məhsəti Gəncəvinin bizə gəlib çatan şeirləri göstərir ki, o, ərəb, fars dillərini gözəl bilib. Şərq poetikasının incəliklərini mükəmməl mənimsəyib. Əsərlərində işlətdiyi bədii vasitələr göstərir ki, o, yüksək istedada, incə zövqə və dərin mütaliəyə, geniş dünyagörüşə sahib olub. Məhsəti istedadlı, mərd və insani keyfiyyətlərə malik bir şəxsiyyət olmuşdur. XII əsrlərdə yaşayan İran şairi Fəridəddin Əttar "İlahinamə" poemasında onu Məhsəti Dəbir deyə təsvir edir:

O təmiz gövhərli Məhsəti Dəbir,
Olmuşdu Səncərlə dil bir, könül bir.
Camalı deyildir ay kimi parlaq,
Qəlbən bağlanmışdı şah ona ancaq.

**II aparıcı** XV əsr təzkirəçisi Dövlətşah Səmərqəndi də Məhsətini Sultan Səncər dövrünün ən yaxşı şairlərindən biri kimi xatırlayıb, adını Ədib Sabir, Navid Katib, Ənvəri, Süzəni və Seyid Həsən Qəznəvi kimi şairlərlə bir sırada çəkib. Araşdırmalarda göstərilir ki, Məhsətinin əldə olan əsərləri arasında bir qitə - məktub var. Həmin məktubdan belə qənaətə gəlinib ki, Ədib Sabir Məhsətiyə məktub yazıb. Bu da şairəni çox sevindirib və ona cavab yazıb:

Sabir, o naməni aldım, oxudum,
Ruhuma sanki qanad bəxş elədi.
O ədəb kanı olan mısraların
Könlümə nurlu həyat bəxş elədi.

Bu şeir Məhsətinin XII əsrdə Sultan Səncər sarayında yaşaması fikrini bir daha təsdiq edir. Sonrakı təzkirəçilər də Məhsətidən Gəncəli şair kimi bəhs edib, əsərlərindən nümunələr veriblər. Şairənin bir qisim rübailərində aşiqin vüsal dəmlərində keçirdiyi sevinc hissləri əks olunur. Şeirlərində insan gözəlliyinin geniş təsviri onun həyata bağlılığını və humanizmini göstərən cəhətlər hesab olunur. Səmimi duyğuların ifadəsi olan bu rübailərdə incə həyat məqamları gülümsəyir: Şərq intibahının bir çox nümayəndəsi kimi Məhsəti də öz əsərlərində insanı, onun duyğularını müdafiə edib. Təmiz insani münasibətləri quru ehkamlara, tərki-dünyalığa və riyakarlığa qarşı qoyub. Şairə bir-birindən gözəl əsrarəngiz məhəbbət nəğmələri yaratmışdır. Məlumdur ki, insanın nəcib istək və arzularının qarşısına hasar çəkmək mümkün deyil. O, gec-tez hər cür sədləri aşaraq qurtulacaq. Məhsətinin də lirik qəhrəmanı məhz dövrünün mənəvi buxovlarından azad olan insandır. O, ancaq sevgilisini düşünür, onu torpağa, suya və günəşə də qısqanır:

Yerlərə baxma ki, torpaq su görər,
Göylərə baxma ki, günsalar nəzər.
Qeyrətdən ölərəm, ey ruhum, səni
Əgər yuxuda da görsə bir nəfər.

**I aparıcı:** Bəli, Məhsəti şeirlərində insan psixologiyası çox təbii və inandırıcı şəkildə əks olunub.

Dərddən söz açmağa məndə hanı can,
Ya qəm şərh etməyə ürək, ey canan?
Kağızı, qələmi cansız, ürəksiz,
Alır, ağlayıram, atıram, aman!

Rübai lirik qəhrəmanın vəziyyətini, duyğular aləmini və ümidsizliyini təsvir etmək nöqteyi-nəzərdən çox maraqlıdır. XII əsrin birinci yarısında yazıb-yaradıb, incə rübailəri ilə şöhrət tapan şairənin yetişməsi Azərbaycan xalqının ictimai-siyasi və mədəni həyatında qazandığı nailiyyətlərin təzahürüdür.

Onun yaradıcılığında Şərq qadınının azad və xoşbəxt həyatı haqqında arzuları da əks olunmuşdur. İlk dəfə olaraq Səhab Tahiri tərəfindən Məhsətinin müxtəlif mənbələrdən rübai, qitə və qəzəlləri toplanmış və 1957-ci ildə 200-ə yaxın şeir parçasından ibarət divanını tərtib etmişdir. Alman alimi Frits Meyer 1963 – cü ildə "Gözəl Məhsəti" monoqrafiyasını yazmış və 257 rübai, 30 yaxın şeir parçasını burada toplamışdır.

Azərbaycan alimləri və tədqiqatçılarının da Məhsətinin həyat və yaradıcılığının araşdırılmasında çox böyük rolları olmuşdur. Belə tədqiqatçılardan biri də professor, filologiya elmləri doktoru Xəlil Yusifov "Məhsəti Gəncəvi" əsərini yazmış və sonda 190-a qədər rübaini əruzla Azərbaycan dilinə çevirmişdir. Məhsəti Gəncəvinin rübailəri təkcə Azərbaycan dilinə deyil, ingilis, italyan, alman, fransız və s dillərə tərcümə edilmişdir. Araşdırmalardan belə nəticə çıxır ki, XI əsrin sonları – XII əsrin əvvəllərində yaşamış Məhsəti Gəncəvi Azərbaycan intibahının parlaq nümayəndəsi və həqiqətidir. XII əsr Azərbaycan klassik şeirinin görkəmli və gözəl nümayəndələrindən biri olan Məhsəti Gəncəvi öz rübailəri ilə daha çox şöhrət qazanmışdır.

*Söhbət rübailərdən düşmüşkən, gəlin oxucularımızın ifasında sevimli şairəmizin rübailərini dinləyək:*

***

Qəm görmüşə hər gün yeni bir qəm yetişər,
Dərd ilə yanan qəlbə dava kəm yetişər.
Aşiqləri öldürməyə çox meyl etmə,
Bir gün sənə də bəla, ey sənəm, yetişər.

***

Görsən məni bir söylə nədən dinmirsən?
Qan tökməyə təşnədir gözün, dönmürsən.
Çərxinmi cəfasıdır çatılmış qaşlar,
Cəlladmısan, insanlığa öyrənmisən?

***

Sən söylədin, ey gözəl: "Üzüm bir cənnət,
Yurdun, yuvan ondan tapacaq min ziynət"
Düzdürmü sənin sözün, yalandır yoxsa,
Dillənməyə könlündə kimin var cürət?

***

Güllər gül üzündən lap əcəb qaldı xəcil,
Ağzın dadını gördü, rütəb qaldı xəcil.
Könlündə ədəbsizlik əgər varsa, çəkin
Etsən də ədəbsizlik, ədəb qaldı xəcil

**II aparıcı:** Məhsəti Azərbaycan və Şərq ədəbiyyatının dövründə yaşamışdır. Həmin dövrdə Nizami, Xaqani kimi dahi sənətkarlar yetişmiş, Əbül – Üla, Fələki, Mücirəddin kimi şairlər yazıb – yaratmışlar. Bu dövrdə dahi Nizami tərəfindən nəinki təkcə Azərbaycan, bəlkə bütün Yaxın və Orta Şərq intibahının ən parlaq ədəbi nümunələri yaradılmışdır.
*Söhbət dahi sənətkarlarımız Nizamidən düşmüşkən gəlin sevimli şairəmiz Nigar Rəfibəylinin "Məhsəti" dramatik poemasından*

*dahi şairlərimiz Nizami ilə Məhsətinin söhbətindən bir parçaya tamaşa edək.*
*Səhnəyə əsərə uyğun paltarlarda Məhsəti Gəncəvinin və Nizami Gəncəvinin sözlərini ifa edən oxucular çıxırlar. Məhsəti çox fikirlidir. Nizami Məhsətini görməyə gəlir.*

**Məhsəti:** Ustad!

**Nizami:** Mənim şair qızım yenə qəmlidir,
Yoxsa ağlamısan, gözün nəmlidir.

**Məhsəti:** Könlüm açılmayır, nədəndir ustad,
Sönmüş bir ocaqdır sanki kainat.
Gözümdə nuru yox günəşin də bax,
Mənimçün dünyada sən varsan ancaq
Məni əzir, ustad, sıxır bu dövran,
Heç könlüm açılmır nədənsə inan!

**Nizami:** Sən bir bəzəyisən bu kainatın,
Kədərlə keçməsin bu gənc həyatın.
Sabahın yelləri oxşasın səni,
Götürsün üstündən qara kölgəni.

**Məhsəti:** Eh, kaş bu saraydan, bu dəbdəbədən
Ömrüm boyu, ustad, iraq olaydım!
O sənin kimsəsiz, yoxsul evində
Həzin-həzin yanan çıraq olaydım.
**Nizami:** Sən ey mələksima, ey nazik ürək,
Sən olan evlərdə çıraq nə gərək?

**Məhsəti:** Gəl, ustad, qəlbimi açma, yaradır,
Xan mənim ağlımı, gözəlliyimi
Bir oyuncaq kimi satmaq istəyir,

Eşqimi, hissimi, məhəbbətimi
Şöhrət girdabına atmaq istəyir.

**Nizami**: Gəncliyin yaraşmır üzünə məlal,
Ümidin dostudur bil ki, istiqbal.
Sənin saf qəlbindən qopan hər fəğan
Ölməz, əsrlərlə yaşayır, inan!

**Məhsəti:** Könlümün dərdləri gəlməzdir saya,
Anamın yanınca düşdüm saraya...
Güvənib ağlıma, istedadıma
Xan da "qızım" dedi mənim adıma.

**Nizami:** Qapılma, acıdır xatirələr bil.

**Məhsəti:** Susdurmaz onları nə hiss, nə ağıl!..
Çox şey istəmədim mən ki həyatdan.

**Nizami:** Azadlıq eşqiylə yaşayır insan!..

**Məhsəti:** Sənətin tükənməz xəzinəsindən
Əlimdə qiymətli bir gövhərim yox.
Rayihələr saçan şeir bağında
Açılan ətirli süsənbərim yox.
Böyük şairlərin yaratdıqları
Bu əlvan dəstədə lalələrim yox.

Nə Şirinki kimi xoş qəzəllərim
Nə də Fərhad kimi bir hünərim yox.

**Nizami:** Sədəflə bəslənən incidir, dürdür,
Su deyil bu axıb gedən, ömürdür.
Şikayət eyləmə yoxsulluğundan,
Baxsan almazın da əsli kömürdür.

Gəncsən, çox yaradıb, yazacaq əlin,
Lakin sarsılmasın eşqin, əməlin.
Qoyma ki, büdrəsin əlində qələm,
İnsanın ən böyük düşmənidir qəm...
Sönməz əbədiyyət, yüksələr günəş,
Açılar üfüqdə bir özgə aləm...
Yaşa bu dünyada günəşdən təmiz.
Nə yalançı şöhrət, nə yalançı şan
Bil ki, qoymamışdır tarixdə nişan.
Bağlasın adınla elin baharı,
Adınla ucalsın yurdun vüqarı!
Səni yetişdirən bu ana torpaq
Sənin sənətinlə abad olacaq.
İnan, gələcəyin böyük adı var,
Yaşar yer üzündə insan bəxtiyar!

*Tamaşanın sonunda ifaçılar tədbir iştirakçıları ilə sağollaşıb səhnədən ayrılırlar.*

**I aparıcı:** Orta əsrlər şəraitində, qadının hüquqlarının məhdudlaşdırdığı bir dövrdə Məhsəti Gəncəvi kimi istedadlı şairənin yetişməsi xüsusi əhəmiyyət kəsb edirdi. Bu ümumi mədəni səviyyənin, baxışlarda yaranan yeniliyin, azadfikirliliyin əlamətlərindən idi. Məhsəti kimi bir qadın sənətkar birdən-birə yetişə bilməzdi. Bunun üçün müəyyən zəmin olmalı idi. Məhsətinin əldə olan şeirləri göstərir ki, o, yaxşı təhsil almış, ərəb və fars dillərini öyrənmiş, Şərq ədəbiyyatı incəliklərini mükəmməl bilmişdir. Onun əsərlərində işlənilən bədii vasitələr aydın şəkildə göstərir ki, Məhsəti yüksək istedad və incə zövqlə yanaşı, dərin mütaliəyə malik olmuşdur. Düzdür, Məhsətinin həyatı, şəxsiyyəti, təhsili haqqında mənbələrdə dəqiq, ətraflı məlumat yoxdur. Şairə haqqında ancaq əsərlərindən əldə olan nümunələrə əsaslanıb müəyyən fikirlər irəli sürmək olar. Bu ondan irəli gəlir ki, orta əsrlər şəraitində qadının şeir yazmağını qəbahət saymış, onun haqqında danışmağı məqbul hesab

etmişlər. Şairənin haqqında müxtəlif rəvayətlər uydurulmuşlar. Bu rəvayətlərin böyük bir qismi "Əmir Əhməd və Məhsəti" adlı dastan – rəvayətdə toplanmışdır.
*Söhbət "Əmir Əhməd və Məhsəti" dastanından düşmüşkən gəlin Əməkdar Mədəniyyət işçisi Kəmalə Ağayevanın "Məhsəti" pyesindən bir parçaya fəal oxucularımızın ifasında tamaşa edək. Səhnəyə Məhsəti, İlyas, Əmir Əhməd, Əşrəfin rolunu ifa edən oxucular çıxırlar.*
*Məhsəti sürgündən doğma vətəni Gəncəyə qayıdıb. Bütün Gəncə onu qarşılamağa çıxıb. Azərbaycanın sevimli şairi İlyas da, onların arasındadır. Məhsəti ürək dolusu nəfəs alır, camaatın gətirdiyi gülləri bağrına basır. Onun gözü Əmir Əhmədi axtarır.*

**Məhsəti:** Ah, vətən, vətən!...
Yığışın yanıma, ellər, ay ellər,
Qəlbim sevinmədi bir gün də sizsiz.
Ömrümün həmdəmi, güllər, a güllər,
Məni baharlara nəql edərsiniz.
Qürbətdən dönmüşəm, məni ellərim
Gözəl qarşıladı, söylə, o hanı?
Məni qarşıladı nərgiz güllərim,
Söylə, ey nərgizim, söylə, o hanı?
Ey burda ötüşən gənclik illərim,
Söylə, bəs o hanı, söylə, o hanı?
Ey burda ötüşən gənclik illərim,
Söylə, bəs o hanı, söylə, o hanı?

*Həzin musiqi sədaları altında Əmir Əhməd daxil olur. O, qocalmış Məhsətini görüb təəcüblə yerində donub qalır. İlyas sözə başlayır.*

**İlyas:** Bu ağ saçlaramı heyrət edirsən,
Məgər bilmirsənmi dağa qar düşər?
Qürbət külləkləri toxunan üzə

Namərd, bilmirsənmi qırışlar düşər?
Vətən yollarına baxan gözlərə
Qəm də pərdə çəkər, intizar düşər.
O sənin yolunda tufana düşdü,
Ömrün gülşəninə bəzən sap düşər,
Baxma sənətkarın xəzan halına
Gün gələr o qəlbə novbahar düşər.

*Əmir Əhməd kədərlə Məhsətinin üzünə baxıb, söyləyir.*

**Əmir Əhməd:** Aldın əllərimdən həyatımı, yar,
Qəlbimi yaşadan dildar sən idin.
Ömrüm xəzan vurmuş yarpağa döndü,
Ona həyat verən bahar sən idin.

*Əmir Əhməd bu sözləri deyib, qəmli halda səhnəni tərk edir.* *Məhsəti İlyasa üzünü tutub, onu evinə aparmasını xahiş edir.*

Sən gəl məni evimə apar,
Bu olar səninçün bir səvab kimi.
O evdə eşqimin xatirəsi var,
Durur oxunmamış bir kitab kimi.
Orda məhəbbətin nakam səsi var,
İnləyir qırılmış bir rübab kimi.
Mən onu dinləyib ölmək istərəm.
Gedək, İlyas, məni evimə apar.
*İlyas fikrə gedir, ürəyində bu sözləri söyləyir.*
Mən ona nə deyim, ey zalım rüzgar...
Ustad, viran qalsın belə dünyanı,
Zalimlər dağıtdı o xanimanı.
Sabahın vəslinə ümidvarlara,
Nə qəsr gərəkdir, nə sığınacaq.
Qəlbin sığa bilməz daş divarlara,
Şairin məskəni dünyadır ancaq.

**Məhsəti**: Deyirdim ölsəm də nə qəm, ellərə
Mən ki, bir xəzinə qoyub gedirəm.
Xanəmlə dağıldı yazdıqlarım da,
Hanı, dünyada nə qoyub gedirəm?
Cəngi mənə verin, dinləyim barı
Onun telindəki hıçqırıqları.
*Məhsəti əlinə çəngi götürüb çalır.*
Mənə nə bilirdin, zaman eylədin
Gücün çatan qədər divan eylədin.
Çırpdın daşdan – daşa, ruzigar, məni.
Bəs yara neylədim, atdı yar məni,
Deyirdim o çətin unudar məni.
Eşqim məhbus oldu dərdli sinədə,
Döndərdi xəzana o bahar məni.
*İlyas Məhsəti xanıma təskinlik verir.*
Yox, Məhsəti xanım, bahar sizsiniz,
Siz gözəl Gəncədə əvəzsizsiniz.
Ömrünü  bitirib ötdükcə illər,
Sizi sinəsinə yazacaq ellər.
*Məhsəti isə cavabında söyləyir:*
Mən haqqın yolunda sönən bir şamam,
Tufanlı səhərdim, indi axşamam.
Lütf edib dinləyin, ey növcavanlar,
Ölüm ayağında sizə sözüm var.
Gözünüz önündə qoyub həyatı.
Dinləməyin əsla puç xurafatı.
Elin çağrılmamış qonağıdır o,
İnanmayın, böhtan çanağıdır o,
İlyas, bir yaxın gəl, gəl dinlə məni,
Sənə tapşırıram dərdli vətəni,
Yaz, qoy yazdıqların bir aləm olsun,
Yaralı vətənə o məlhəm olsun.

*Məhsəti bu sözləri deyib, gözlərini həyata əbədilik yumur.*
*İlyas onun başını dizləri üstə alaraq söyləyir*:
Sən bir ülkər idin, işıq saçardın,
Bu işıq gözü kor dövrana düşdü.
Şadlığı çox sevən o böyük qəlbin
Əfsus! Gülzara yox, tufana düşdü.
*Bu an Əşrəf Məhsəti Gəncəvinin cənazəsi önündə diz çökür və deyir:*

Aman, yandı canım, bu ölüm nədir?
Özün demirdinmi vətən canımdır?
Ayrılıb dünyadan bir dünya gedir,
Axı, sən deyirdin el dərmanımdır.
Budur, dövrəndədir sevdiyin ellər,
Əzizim, torpaqlar yaraşmır sənə.
Deyirdin qürbətdə ölərsəm əgər,
Vətən torpağında dirilləm yenə.
Hanı, dediklərin söylə bəs hanı?
Söndürdü xurafat ömür şamını,
Fəqət rahat uyu, ey mehribanım,
Alar oğulların intiqamını.

**İlyas:** Yox, yox, o ölməmiş, inanmıram mən,
Fəqət üz çevirmiş zəmanəsindən.
O öz atəşiylə nura büründü,
Əsrin göylərində parladı, söndü.
Fəqət inanıram, gələcək zaman.
Onun göylərinin aydınlığından.
Can alıb yuxudan o oyanacaq,
O ulduz parlayıb yenə yanacaq.

*Tamaşanın sonunda iştirakçılar baş əyib, səhnədən ayrılırlar.*

**II aparıcı**: Təxminən XIV əsrdə yarandığı ehtimal edilən bu kitabın özündə də Məhsətiyə rəğbət hissi duyulur, onun yüksək istedadı, mərdliyi, xoş təbiəti göstərilir. Məhsəti Gəncəvi

yaradıcılığına rəvayətlərə əsasən yanaşmaq, əlbəttə, böyük səhv olardı. Məhsəti şairənin təxəllüsüdür. Necə ki, Xaqani, Nizami, Xətai də olduğu kimi. Əsrlər keçməsinə baxmayaraq dərin insani duyğuların tərcümanı olan şeirlərin müəllifi Məhsəti unudulmamış, həmişə sevilmişdir. Məhsəti Gəncəvi bəzən Dəbir deyə xatırlanmışdır. XII –XIII əsrlərdə yaşamış görkəmli İran şairi Fəridəddin Əttar "İlahinamə" poemasında Məhsətini Dəbir adlandırmışdır. Məhsəti dövrünə yaxın olan Əttar şairəni təmiz gövhərli Dəbir adlandırır. Dəbir katib, yazan, yazı işlərini aparan mənasını daşıyır. Dəbir yüksək savada, gözəl xəttə malik olmalı, hazırcavablığı, incə zövqü, diplomatik keyfiyyətləri ilə seçilməli idi. Məhsəti Gəncəvidə bu xüsusiyyətlərin hər biri var idi. Şairənin bədahətən şeirlər deyə bilməsi də bu işdə köməyinə gəlirmiş. Bizə görə, Məhsətinin Dəbir deyə xatırlanması onun yüksək savada malik bir ziyalı olduğunu, Sultan Səncər sarayında aparılan yazışmalarda yaxından iştirak etdiyini göstərir.

**I aparıcı**: Təzkirə və tarix müəllifləri də Məhsətidən gəncəli şairi kimi bəhs etmiş, əsərlərindən nümunələr vermişlər. Məhsəti haqqındakı məlumatlar göstərir ki, o, XII əsr Azərbaycan şeirinin istedadlı nümayəndələrindən biri olmuşdur. Məhsətinin ədəbi irsi zamanı keşməkeşləri nəticəsində pərakəndə düşmüş, bütöv bir məcmuə, ya divan şəklində gəlib bizə çatmışdır. Lakin xoşbəxtlikdən bu gözəl qadın şairənin irsi tamamilə itib batmamışdır. Şeir və sənət həvəskarları onun şeirlərini əzbərləmiş, haqqında rəvayətlər düzəltmiş, şeirlərindən əldə edə bildiklərini dəftərlərinə köçürmüşlər.

Məhsətinin lirik qəhrəmanı məhz dövrün mənəvi buxovlarından azad olmuş insandır. Şairənin rübailərində insanın psixologiyası çox təbii və inandırıcı əks olunur. Psixoloji cəhətdən şeir o qədər məharətlə qurulmuşdur ki, həsrət və düşüncə məngənəsində sıxılan aşiqin əhvali-ruhiyyəsi haqqında

oxucuda aydın təsəvvür yaradır. Məhsətinin rübailərinin qəhrəmanı Məcnunun müasiridir.

Məhsətinin ayrı-ayrı peşə sahiblərinə həsr olunmuş rübailəri tarixilik baxımından da əhəmiyyətlidir. Həmin şeirlər ümumi şəkildə olsa da, o dövrkü Azərbaycan şəhərlərində olan sənət və sənətkarlar haqqında məlumat verir. Məhsətinin peşə və sənət adamlarına belə rəğbətli münasibəti onun əxilərə, əxi görüşlərinə yaxınlığı haqqında düşünməyə imkan verir. Şairənin Gəncədə yaşadığı Xarabat məhəlləsi əxilərin də çox toplaşdığı yer idi. Məhsətinin sadə əmək adamları ilə bağlılığı bu şeirlərdə aydın hiss olunur. Məhsəti rübainin imkanları daxilində mədhiyyə ənənələrinə sadiq qalaraq çox maraqlı əsərlər yaratmışdır.

Üç min il dolanıb günəş dünyanı,
Yaradar bir qızıl, ya gövhər kanı.
Əlimi, ovcumu bir sözlə, ey şah,
Sən etdin həm qızıl, həm gövhər kanı.

Bu rübaidə də Məhsəti böyük ustalıqla ona nə münasibətləsə bolluca bəxşiş verən hökmdara öz minnətdarlığını bildirir.

Məhsəti özünü qolsuz-qanadsız, zəif bir quşa, zəmanəsini isə onu pərvazlanmağa, ürəyinin istəyincə qanadlanmağa macal verməyən bir qəfəsə oxşadırdı. Şairə bu rübaidə öz qüdrətini nümayiş etdirə bilmişdir.  Şairə hökmdarın səxavətini tərifləmək üçün onu üç min il ərzində bir qızıl mədəni yetirən günəşlə müqayisə edir. Məhsəti folklor havalı, folklor ruhlu bir sənətkardır. Məhsəti bir şair kimi ədəbiyyatımızın qanunauyğun inkişafı ilə,  öz yaradıcılığı ilə bu tərəqqiyə yeni izlər qoydu, söz sənətimizin yüksəlişinə təsirli xidmətlər göstərdi. Fars, ərəb, türkdilli şeirdə on üç əsrlik zəngin ənənəsi olan rübaiçilikdə Məhsətinin xüsusi yeri var. O, Xəyyamla birgə Şərq ədəbiyyatında ən qüdrətli rübai ustası kimi şöhrətlənmişdir.

Onun ədəbi irsindəki yeni mövzular, cəsarətli ideyalar, sələflərindən tamamilə fərqlənən obrazlar sistemi rübaiçiliyi zənginləşdirmiş, ideya-tematik hüdudlarını bir qədər də genişləndirmiş, ifadə tərzini bir qədər də əlvanlaşdırmışdır. Məhz elə buna görə sonralar rübaiyə üz tutan bir çox sənətkarlar Məhsəti ənənələrini davam etdirmiş, Məhsəti rübailərinə nəzirələr, bənzətmələr yazmışlar.

**II aparıcı:** Məhsətinin yaşadığı dövrdən keçən bir zaman ərzində heç kəs onun bir şairə kimi tarixi şəxsiyyət olmasına şübhə ilə yanaşmamışdır. Məhsəti Gəncəvinin tarixi şəxsiyyət olmasını bir çox orta əsr şair və alimlərinin müxtəlif qeydləri təsdiq edir. Öz incə ruhlu şeirlər ilə şöhrətlənən şairə ömrünün müəyyən müddətini Sultan Mahmud Səlcuqi və Sultan Səncər saraylarında keçirmişdir. O, rübai janrının ən görkəmli nümayəndəsi kimi tanınmışdır. Məhsətinin həyatı və şeirləri öz zəmanəsindən başlayaraq şeir və sənət adamlarının diqqətini cəlb etmişdir. Qadın, onun mənəvi haqqı, idealları, arzu və istəkləri Məhsəti şeirində heyrətamiz bir ustalıqla qələmə alınmışdır. Bu baxımdan ədəbiyyatlarımızın Məhsətidən çox sonrakı inkişaf mərhələlərində də gəncəli şairənin ucaldığı səviyyəyə qalxan ikinci sənətkar görmürük. Məhsəti Azərbaycan şeirində ilk dəfə şəhraşüb janrına müraciət etmiş, bütün Şərq şeirində rübai – şəhraşüblar silsiləsinin ən mükəmməl örnəklərindən birini qələmə almışdır. Məhsəti irsinin poetik incəlikləri saysız – qədərsizdir. Bəli Məhsəti söz tariximizin ilk böyük şairəsidir.

Məhsəti Gəncəvi intibah dövründə Azərbaycan ədəbiyyatının asimanında öz yeri olan, gözə tez çarpan parlaq ulduzlardan biridir. Məhsətinin Nigar Rəfibəyli tərəfindən ustalıqla Azərbaycan türkcəsinə çevirilmiş rübailəri oxucular tərəfindən rəğbətlə qarşılanmış, dönə - dönə çapdan çıxmışdır.

*Söhbət rübailərdən düşmüşkən gəlin məktəbli oxucularımızın ifasında rübailərə qulaq asaq.*

I Oxucu: Hər iki dünyanın kərimi Sənsən
Qocaya, cavana kömək edənsən!
Sənin rəhmətinə əminik, Allah,
Könlümüz şad olur sənin feyzindən.

II Oxucu: Məni kam almağa qoymadı zaman,
Gücü çatan qədər elədi divan
Deyəsən əhd etmiş,dolandıqca hey
Məni də özüylə hərlətsin dövran.

I Oxucu Özgədən heç zaman gözləmə kömək,
Quru budaq kölgə salmaz, ey ürək!
Qənaət əzizlər, tamah xar edər,
Az olan şeylərə qənaət gərək.

II Oxucu: Ey ürək! Ömrünü vermisən badə,
Gülüb yetməmisən kamə, murada.
Kimsə yetişmədi dadıma, heyhat!
Mən sənin əlindən gəldim fəryadə.

I Oxucu: Yudun xətaləri, sən ey lütfkar,
Qulluq sırğan bütün qulaqlarda var.
Günahın yükünü götür, ey Allah,
Dar gündə kimsəni sən eyləmə xar!

**I aparıcı:** Bu gün Məhsətinin danışdığı dillərin sayı çoxdur. Gəncəli şairənin poetik yadigarlarının sərhədi getdikcə böyüyür. Rübailər almancaya, fransızcaya, ingiliscəyə, italyancaya və s. dillərə çevrilib. Bir sözlə, Məhsəti şöhrətinin, Məhsəti fəthlərinin fəzaları hüdudsuzdur. Məhsəti sözünün cazibəsi doqquz yüz il bundan əvvəl olduğu məqamında qalır, yenə oxucusunu heyran edir Bu gün dünyada bizi – Azərbaycanı həm də Məhsətiyə görə tanıyırlar. Məhsəti Gəncəvi ölməz sənəti ilə bütöv Azərbaycanda özünə abidə ucaldıb. Təsəvvürümüzə

sığmayacaq qədər nəhəng zamanlar boyu Məhsətinin adı və şeirləri illərimizi aydınladacaq, köhnəlməyən gerçəkləriylə köhnə dünyaya hayan olacaq.

Ötkəm şəxsiyyəti, üstün ağlı, sərhədsiz duyğular dünyasıyla vəhdətdə olan qələminin bəhrələrini xalqına əbədi miras edən Məhsətinin millətinə və məmləkətinə xidmətlərindən biri də adının yanında Gəncə sözünün olmasıdır. Məhsəti uca varlığıyla, yaşarı irsiylə adının yanındakı vətəni hər zaman qorudu. Məhsəti nəğməsinin, Məhsəti sözünün, Məhsəti adının yeni əsrdə, yeni minillikdə daha böyük diqqətlərə və sevgilərə layiq görüləcəyinə hamımız inanırıq. Məhsətinin söz övladları, şeir balaları doqquz yüz əsrdən çoxdur diridir, sağdır. Onun əsərləri zehinlərdə, könüllərdə daim yaşayacaq və yeni doğulacaq əsərlərdə əks-səda verəcək...

Ədəbi hadisə olan Məhsəti Gəncəvi tək milli şeirimizin, tək Şərqin deyil, bütün dünya ədəbiyyatının bəzəyi olmağa layiqdir.

**II aparıcı:**Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, UNESCO-nun və İSESCO-nun xoşməramlı səfiri Mehriban Əliyevanın dəstəyi ilə Azərbaycanda, Avropanın Fransa, Avstriya, İtaliya kimi dövlətlərində, Şərqin və dünyanın digər ölkələrində musiqi axşamları, sərgilər, ədəbi gecələr, teatrlar təşkil edilib. Bəli, XI əsrin sonu – XII əsrin əvvəllərində yaşamış böyük Azərbaycan şairəsi Məhsəti Gəncəvi mədəniyyətimizin intibahının parlaq nümayəndəsi olub. Bu gün dünyada bizi – Azərbaycanı həm də Məhsətiyə görə tanıyırlar. Məhsəti Gəncəvi ölməz sənəti ilə bütöv Azərbaycanda özünə abidə ucaldıb.

Təsəvvürümüzə sığmayacaq qədər nəhəng zamanlar boyu Məhsətinin adı və şeirləri illərimizi aydınladacaq, köhnəlməyən gerçəkləriylə köhnə dünyaya hayan olacaq. Millətinə bağışladığı bu əbədi birincilik və o birinciliyin gətirdiyi milli iftixar duyğusu Gəncəli Məhsətini həmişə gənc edəcək!

## Ədəbiyyat siyahısı


*Əsərləri*

**Məhsəti Gəncəvi nəğmələri** : Məhsəti Gəncəvi rübailəri Rafael Hüseynovun farscadan tərcümələrində və Rizvan Sədirxanovun bəstələrində - Bakı : Şərq-Qərb, 2013. - 71 s.

Rübaidən - rübaiyə : Seçmə tərcümələr. - Bakı : Elm və Təhsil, 2012. - 208 s.

**Rübailər.** - Bakı : Lider nəşriyyatı, 2004. - 144 s. - (Klassik Azərbaycan Ədəbiyyatı).

**Rübailər // Azərbaycan qadın şairləri** antologiyası : Poeziya. - Bakı : Avrasiya Press, 2005. – S. 12-19. (Ədəbiyyat antologiyaları).

**Şeirlər**// Seçilmiş əsərləri. - Bakı : Çaşıoğlu, 2006. - 232 s. - (Azərbaycan Ədəbiyyatı).

*Haqqında*

**Hüseynov R.** Məhsəti - necə varsa. - Bakı : Yazıçı, 1989. - 336 s. - kiril əlifbası ilə.

**Hüseynov R.** Məhsəti Gəncəvi-özü, sözü, izi. - Bakı : Nurlan, 2005. - 560 s.

**Hüseynov R.** Məhsəti Gəncəvi: portret-oçerk. - Bakı : Şərq-Qərb, 2013. - 80 s. - Kitab Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Məhsəti Gəncəvinin 900 illik yubileyinin keçirilməsi haqqında 16 yanvar 2013-cü il tarixli Sərəncamına əsasən nəşr olunur. - Kitab Azərbaycan Milli Elmlər Akademiyasının Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyində hazırlanmışdır. - Frontispisdə verilmiş Məhsəti Gəncəvinin portretinin müəllifi rəssam Güllü Mustafayevadır.

**Hüseynov R.** Söz tək gözəl - Məhsəti : monoqrafiya. - Bakı : Şərq-Qərb, 2013. - 560 s.

**Məhsəti Gəncəvi** // Varlıq : Ensiklopedik toplu. - Bakı : Zaman, 1998. – S. 205.

**Qacar Ç.** Sufi krallığının birinci xanımı Məhsəti Gəncəvi // Azərbaycan qədim və orta əsrlərdə. Görkəmli şəxsiyyətlər. - Bakı : OKA ofset, 2012. - S. 136-146.

***Məhsəti xanım obrazı bədii ədəbiyyatda***

**Dilbazi M.** Məhsəti : mənzum pyes // Seçilmiş əsərləri. - Bakı : Lider, 2007. - S. 249-270.

**Kəmalə.** Məhsəti : 4 pərdəli mənzum pyes // Məhsəti : mənzum pyeslər. - Bakı : Yazıçı, 2001. – S.5-96.

**Ordubadi M.S.** Qılınc və qələm. – Bakı : Şərq-Qərb, 2005. – 344 s.

**Rəfibəyli N.** Məhsəti : dramatik poemadan bir parça // Seçilmiş əsərləri. - Bakı : Şərq-Qərb, 2004. - S. 244-253.

# Humanizmi, nikbinliyi ilə seçilən şairə
**(metodik vəsait)**

**Ünvan:AZ-1022 Bakı şəh.,S.Vurğun küç.88;**
**E-mail:info@clb.az**
**URL:www.clb.az**

F.Köçərli adına Respublika
Uşaq Kitabxanasında
çap olunmuşdur.
Sifariş: 21
Çapa imzalanmışdır: 27.02.2018
Tirajı:100
Pulsuz